Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 194 (7921) ŞƏNBƏ, 1 sentyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik





## Xeyirxahlıq, mərhəmət və nəcib əməllər

### Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan proqram və layihələr sosial siyasətə böyük töhfələr verir

**Respublikamızın iqtisadi tərəqqisi, dünya birliyində öz layiqli yerini tutması, müstəqilliyimizin və dövlətçiliyimizin daha da qüdrətlənməsi üçün ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi və müasir dövrdə Prezident İlham Əliyevin qətiyyətlə həyata keçirdiyi siyasi xəttin tam düzgünlüyü bütün sahələrdə real təsdiqini tapıb.**

Ona görə belə bir fakt hamı tərəfindən qəbul olunur ki, bu siyasətin davam etdirilməsi Azərbaycanın bugünkü və gələcək inkişafının yeganə etibarlı təminatıdır.

14 il öncə yaranan Heydər Əliyev Fondu da ulu öndərin ideyalarından çıxış edərək fəaliyyəti ilə ölkədə həyata keçirilən siyasi kursun daha böyük uğur qazanmasına layiqli töhfələr verir. İctimai təşkilat olan Heydər Əliyev Fondu qarşıya qoyduğu, reallaşdırdığı məqsəd və vəzifələrin əhəmiyyətinə, miqyasına görə ölkəmizdə analoqu olmayan qurumdur. Bacarıqlı təşkilatçılığı, üzərinə götürdüyü vəzifəyə sadiqliyi, iradəsi, ardıcıl və qətiyyətli fəaliyyəti nəticəsində fond həm respublikamızda, həm də xaricdə, nüfuzlu beynəlxalq qurumlarda böyük hörmət qazanıb. Fondun geniş spektri əhatə edən fəaliyyəti, həyata keçirdiyi çoxşaxəli layihələr hər bir azərbaycanlıya yaxşı məlumdur. Fondun əsas məqsədi Azərbaycan xalqının rifahının yüksəldilməsinə yönəldilmiş layihələrin həyata keçirilməsinə yardımçı olmaq, elm, təhsil, mədəniyyət, səhiyyə, idman, ekoloji sahələrə aid proqramları gerçəkləşdirmək, milli-mənəvi dəyərlərə sadiq gənclər yetişdirmək və xeyriyyəçilikdir. Hər addımı ilə ölkəmizin inkişafına böyük töhfələr verən Heydər Əliyev Fondunun fəaliyyəti, eyni zamanda, bəşəriyyətin həmrəyliyi üçün sivilizasiyalararası dialoqa yönəlib.

Azərbaycanı dünyaya daha yaxından tanıdan, hər zaman köməyə, yardıma ehtiyacı olanların yanında yer alan Heydər Əliyev Fondunun uğurlarının əsasında dayanan əsas amil ona rəhbərlik edən ölkəmizin birinci xanımı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın əzmkarlığı və təşəbbüskarlığıdır. Eyni zamanda, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri olan Mehriban Əliyeva sülhə və əmin-amanlığa töhfələr verməyi, insanlara qayğı və təmənnasız xidmət amalını, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasını, mədəniyyətimizin, mənəvi dəyərlərimizin təbliğini, milli genefondumuzun qorunmasını və cəmiyyətin diqqətini bu istiqamətlərə cəlb etməyi özünün vətəndaşlıq borcu hesab edir.

Heydər Əliyev Fondunun fəaliyyətində sosial layihələr, əhalinin ən zəif müdafiə olunan təbəqələrinə, müxtəlif xəstəliklərdən əziyyət çəkən insanlara, valideyn himayəsindən məhrum olmuş uşaqlara, qaçqın və məcburi köçkünlərə kömək göstərilməsi, səhiyyə müəssisələrinin yaradılması, məktəblərin, bağçaların, uşaq evlərinin tikintisi xüsusilə diqqəti çəkir. Heydər Əliyev Fondu Azərbaycanla yanaşı, xaricdə də xeyirxahlıq məbədi kimi tanınır və sevilir.

Bu gün on minlərlə Azərbaycan məktəblisi, xüsusən ucqar kənd yerlərində yaşayan uşaqlar beynəlxalq standartlara uyğun tikilmiş, qışda qızdırılan istilik sistemləri və kompüterlər də daxil olmaqla bütün zəruri avadanlıqlarla təmin edilən yeni məktəblərdə parta arxasında əyləşmək imkanına görə Heydər Əliyev Fonduna və onun prezidentinə minnətdardırlar. Mehriban xanım Əliyevanın müəllifi olduğu "Yeniləşən Azərbaycana yeni məktəb" layihəsinin uğurlu icrası nəticəsində isə Heydər Əliyev Fondu Azərbaycanda təhsilin inkişafında inqilabi dəyişikliklərə imza atıb. Proqram çərçivəsində ölkənin müxtəlif bölgələrində 400-dən çox məktəb binası inşa olunmuş və yenidən qurulmuşdur.

*Ardı 2-ci səh.*

## Bir nömrəli yeni nəsil şəxsiyyət vəsiqəsi Prezident İlham Əliyevə təqdim olundu





**Sentyabrın 1-dən Azərbaycanda yeni nəsil elektron şəxsiyyət vəsiqələrinin tətbiqinə başlanır.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası vətəndaşının biometrik göstəricilərini özündə əks etdirən bir nömrəli elektron şəxsiyyət vəsiqəsi avqustun 31-də Prezident İlham Əliyevə təqdim olunub.

Dövlət başçısı şəxsiyyət vəsiqəsi üçün foto çəkdirdi. Prezident İlham Əliyev elektron imza qoydu. Bir nömrəli elektron şəxsiyyət vəsiqəsi dövlət başçısına təqdim olundu.

Daxili işlər naziri Ramil Usubov və iqtisadiyyat naziri Şahin Mustafayev elektron şəxsiyyət vəsiqəsinin hazırlanması və vətəndaşlara verilməsi ilə bağlı Prezident İlham Əliyevə məlumat verdilər.

Qeyd edək ki, yeni nəsil şəxsiyyət vəsiqələri təhlükəsizlik nöqteyi-nəzərdən köhnə vəsiqələrdən daha təkmil olacaq. Bu vəsiqələrə vətəndaşın yaşayış yeri üzrə qeydiyyatı, ailə vəziyyəti haqqında məlumatlar, habelə şəxsiyyət vəsiqəsi sahibinin biometrik fotosu və digər fərdi göstəriciləri özündə birləşdirən elektron daşıyıcı - çip yerləşdiriləcək. Bütün parametrlərə cavab verən, saxtalaşdırılmanın qarşısının alındığı, məlumatların elektronlaşdırıldığı yeni nəsil şəxsiyyət vəsiqələri üçün vətəndaşlar bütün ərazi polis orqanlarına və "ASAN xidmət" mərkəzlərinə müraciət edə bilərlər.

Şəxsiyyət vəsiqələrinin çapı isə Daxili İşlər Nazirliyinin 10 regional mərkəzində və iki "ASAN xidmət" mərkəzində həyata keçiriləcək.



## Dövlət başçısının bölgələrə səfərləri yeni sosial-iqtisadi obyektlərin tikintisini sürətləndirir

**Həyata keçirilən sosial-iqtisadi siyasətin əsas istiqamətlərindən biri də ölkənin hərtərəfli inkişafına nail olmaqdır. Bu məqsədlə regionların sosial-iqtisadi inkişafını hədəf götürən üç dövlət proqramı qəbul olunub. İki dövlət proqramı uğurla icra edilib, üçüncü proqram üzrə qarşıya qoyulan məsələlər isə yerinə yetirilməkdədir.**

Dövlət tərəfindən həyata keçirilən siyasət sayəsində son 15 ildə regionların sosial-iqtisadi inişafında mühüm irəliləyişlərə nail olunub. Bu müddət ərzində bölgələrdə aqrar sektora, qeyri-neft sənayesinə, turizmə və digər sahələrə aid minlərlə kiçik, orta və iri müəssisələr tikilib. Bununla yanaşı, bölgələrdə sosial infrastrukturun inkişafı sahəsində mühüm işlər görülüb. Bölgələri əhatə edən magistral və kənd yolları müasir standartlara uyğunlaşdırılıb, yeni məktəblər, xəstəxanalar, mədəniyyət və idman obyektləri tikilib, qaz, elektrik və su xətləri çəkilib. Bütün bunlar bölgələrin simasının kökündən dəyişməsinə səbəb olub.

Dövlət başçısı bölgələrin sosial-iqtisadi inkişafına xüsusi əhəmiyyət verir. Bu məqsədlə regionlara tez-tez səfərlərə çıxmaqla yeni müəssisələrin açılışında və təməlqoyma mərasimlərində iştirak edir, hər rayonda mövcud problemin yerində həlli üçün sərəncamlar verir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın avqustun 25-26-da İsmayıllı və Şamaxı rayonlarına səfərləri də bu baxımdan yaddaqalan oldu. Dövlət başçısı və Birinci vitse-prezident səfər çərçivəsində Şamaxının Meysəri kəndindəki "Şirvan şərabları" MMC-nin üzümçülük və şərabçılıq kompleksinin açılışında iştirak etdilər.

*Ardı 5-ci səh.*



## Avrasiyanın geostrateji mərkəzi, dialoq və əməkdaşlıq məkanı




### Son 8 ayda Bakıda keçirilən beynəlxalq forumlar, konfranslar, sərgilər Azərbaycanın etibarlı tərəfdaşlığa hər zaman açıq ölkə olduğunu təsdiqləyir

**Əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olan Azərbaycan təkcə coğrafi deyil, həm də mədəniyyət körpüsü, dinlərarası münasibətlərin ideal göstəricilərinin olduğu Cənubi Qafqaz ölkəsidir.**

Nəinki Cənubi Qafqazda, əminliklə demək olar ki, bütün Yaxın və Orta Şərqdə ölkəmiz islam mədəniyyətinin, tolerant mühitin formalaşdığı, radikal baxışlara ictimai qınağın və dövlət nəzarətinin olduğu mükəmməl nümunələrdən biridir.

### Mühüm layihələr və zəngin təcrübə

Tolerantlığın məkanı, multikultural ənənələrə sadiq müstəqil Azərbaycan mədəniyyətlərarası dialoqunun inkişafına, mədəni müxtəlifliyin qorunub saxlanmasına və sivilizasiyalar arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsinə yönəlmiş mühüm layihələrin, mötəbər forumların gerçəkləşdirilməsi sahəsində zəngin təcrübəyə malikdir. Ölkəmizdə keçirilən qlobal və mədəniyyətlərarası dialoq forumları, beynəlxalq konfrans və sərgilər bunun əyani sübutudur. Bütün bunlar Azərbaycanın beynəlxalq tədbirlər məkanı olduğunu təsdiqləyən faktlardır.

Nazirlər Kabinetinin son iclasında Prezident İlham Əliyev məhz bu konfransların, forumların, beynəlxalq sərgilərin əhəmiyyətinə toxunaraq qeyd etdi ki, Azərbaycan dövləti nəinki ölkə daxilində millətlərarası, dinlərarası münasibətləri ən yüksək səviyyədə tənzimləyir, hətta dünyaya nümunə göstərir. Bu il Bakıda üzvlərinin sayına görə dünyanın ikinci böyük təşkilatının - Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin konfransı keçirilib. Bu tədbirdə də Azərbaycanda həyata keçirilən daxili və xarici siyasətə dəstək göstərilib. Gələn ildən Azərbaycan bu böyük mötəbər təşkilata sədrlik edəcək. 2019-cu ildə Azərbaycanda zirvə görüşü keçiriləcək. Bu isə bir daha ölkəmizə olan hörmətin təzahürüdür.

### Daim sülh və sabitliyə dəstək verən ölkə

Öz xarici siyasətini beynəlxalq hüquq norma və prinsipləri, o cümlədən dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, daxili işlərə müdaxilə edilməməsi prinsipləri əsasında quran Azərbaycan dövləti heç vaxt bu sahədə qətiyyətli mövqeyindən çəkilmir.

*Ardı 4-cü səh.*

## Kobzon bütöv bir dövrün rəmzinə çevrilib

*İosif Kobzonun ailəsinə*

İosif Davıdoviç Kobzonun vəfatı haqqında xəbər məni dərindən kədərləndirdi.

Sizə, İosif Davıdoviçin bütün doğmalarına və yaxınlarına Azərbaycan xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən dərin hüznlə başsağlığı verirəm.

Ustad müğənni, görkəmli ictimai-siyasi xadim İosif Kobzonun adı sovet və Rusiya mədəniyyətinin şanlı salnaməsinə əbədi daxil olub. Onun yüksək şövqlə oxuduğu mahnılar neçə-neçə nəsillərin qəlbində xüsusi yer tutur.

Çoxşaxəli istedadı, bənzərsiz səsi və fitri musiqi duyumu sayəsində İosif Kobzon bütöv bir dövrün rəmzinə çevrilib. Dövlət Dumasında məsul vəzifə tutarkən o, mədəni irsin qorunub saxlanmasına və zənginləşməsinə fəal kömək edirdi.

İosif Kobzon Azərbaycan ilə Rusiya arasında mədəni əlaqələrin inkişafına, mehriban münasibətlərin möhkəmlənməsinə verdiyi töhfəyə görə Azərbaycan Respublikasının "Şöhrət" və "Dostluq" ordenləri ilə, həmçinin "Azərbaycan Respublikası Prezidentinin Fəxri Diplomu" ilə təltif edilib.

Bu ağır itki ilə əlaqədar sizin dərdinizə səmimi-qəlbdən şərik olduğumu və sizinlə bərabər kədərləndiyimi bildirirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı, 30 avqust 2018-ci il*

## Yeni hakimiyyət, köhnə rejim, daha da dərinləşən böhran

### Siyasi xaos, sosial-iqtisadi tənəzzül Ermənistanı uçuruma yuvarladır

**Ermənistanın daxili ictimai, sosial-siyasi vəziyyətinin dərin böhrana doğru getməsi hər keçən gün özünü daha qabarıq formada büruzə verməkdədir.**

Hazırda üzləşdiyi dərin iqtisadi böhrandan çıxış yolu tapa bilməyən Ermənistanda hökm sürən siyasi parçalanma da işğalçı ölkəni uçuruma yuvarladır. Bu fonda isə yeni hökumətlə müxalifət arasında yaranan qarşıdurma səngimir. Belə vəziyyətdə baş nazir Nikol Paşinyan rəqiblərini həbs etdirməklə aradan götürməyə çalışır.

*Ardı 6-cı səh.*

## Özbəkistan Respublikasının Prezidenti zati-aliləri cənab Şavkat Mirziyoyevə

Hörmətli Şavkat Miromonoviç!

Ölkənizin milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu gün qardaş Özbəkistan müstəqillik yolu ilə inamla irəliləyərək dövlətçiliyin möhkəmləndirilməsi, ölkənin sosial-iqtisadi inkişafı sahəsində mühüm nailiyyətlər qazanır. Özbəkistanın beynəlxalq aləmdə nüfuzu daim artır.

Ölkələrimiz arasındakı əlaqələr ortaq milli, mənəvi və mədəni dəyərləri ilə bir-birinə sıx bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanır. Dövlətlərarası münasibətlərimizin belə möhkəm təməllər üzərində inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi xüsusi məmnunluq doğurur.

İnanıram ki, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi və daha da dərinləşməsi bundan sonra da ölkələrimizin və xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Hörmətli Şavkat Miromonoviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Özbəkistan xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2018-ci il*

## Slovakiya Respublikasının Prezidenti zati-aliləri cənab Andrey Kiskaya

Hörmətli cənab Prezident!

Slovakiya Respublikasının milli bayramı - Konstitusiya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan-Slovakiya əlaqələri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Slovakiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2018-ci il*

## Cəlilabad rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Cəlilabad rayonunda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədi ilə "İncəçay", "Cəfərxanlı", "Üçtəpə", "Bəylər" və "Alıcı" su anbarlarında zəruri təmir-bərpa işlərinin aparılması üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Cəlilabad Rayon İcra Hakimiyyətinə 4,5 milyon (dörd milyon beş yüz min) manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2018-ci il*

## E.S.İsayevin Naxçıvan Müəllimlər İnstitutunun rektoru təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elbrus Saleh oğlu İsayev Naxçıvan Müəllimlər İnstitutunun rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2018-ci il*

## V.M.Babazadənin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında geologiya elminin inkişafında böyük xidmətlərinə görə Vasif Məmməd Ağa oğlu Babazadə "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2018-ci il*

# Mehriban ƏLİYEVA: "Çinlə Azərbaycan arasında münasibətlər dostluq və tərəfdaşlıq üzərində qurulub, qarşılıqlı hörmətə əsaslanır"





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva avqustun 31-də Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Li Syaolinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.





AZƏRTAC xəbər verir ki, qonağın Azərbaycana səfərinin uğurlu olacağına əminliyini ifadə edən Birinci vitse-prezident Mehriban Əliyeva Li Syaolinin Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri kimi ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsinə yönələn fəaliyyətinə görə ona təşəkkürünü bildirdi. Birinci vitse-prezident Çinlə Azərbaycan arasında münasibətlərin dostluq və tərəfdaşlıq üzərində qurulduğunu, qarşılıqlı hörmətə əsaslandığını vurğuladı. Mehriban Əliyeva iki ölkənin müxtəlif sahələrdə, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlıq etdiyini bildirdi, siyasi əlaqələrin ən yüksək səviyyədə olduğunu diqqətə çatdırdı. Heydər Əliyev Fondunun Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyası ilə uğurlu əməkdaşlıq etdiyini bildirən Mehriban Əliyeva ötən il iki qurum arasında dostluq və əməkdaşlıq memorandumunun imzalandığını və bu istiqamətdə artıq işlərin başlandığını diqqətə çatdırdı.

"Bu il Çində yaradılan yay düşərgəsini Azərbaycandan olan uşaqlar da ziyarət etdilər, Çində Azərbaycan mədəniyyət günləri, o cümlədən Azərbaycan sərgiləri təşkil edildi", - deyən Mehriban Əliyeva gələcək əməkdaşlıq üçün böyük potensialın olduğuna əminliyini ifadə etdi. Birinci vitse-prezident Çinin dünyanın ən güclü iqtisadiyyatlarından birinə malik olduğunu qeyd etdi və bu sahədə birgə fəaliyyət üçün yaxşı imkanların olduğunu söylədi. Nəqliyyat sahəsində mövcud olan geniş potensialı qeyd edən Mehriban Əliyeva Azərbaycanın artıq iri mərkəzə çevrildiyini, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı ilə Asiyaya ən qısa yolun çəkildiyini bildirdi. Həm Azərbaycanın, həm də Çinin tarixən Böyük İpək yolu üstündə yerləşdiyini və bunun əməkdaşlıq üçün yaxşı imkanlar yaratdığını vurğuladı. Bu yaxınlarda Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına müşahidəçi dövlət kimi üzv olmaq üçün ərizə təqdim etdiyini, bu ilin may ayında təşkilatın mənzil-qərargahında Azərbaycan mədəniyyət günlərinin uğurla keçirildiyini xatırladan Birinci vitse-prezident ölkəmizə dəstəyə və göstərilən yüksək münasibətə görə təşəkkürünü çatdırdı. Mehriban Əliyeva Azərbaycanla Çin arasında dostluq körpülərinin yaradıldığını və Li Syaolinin səfərinin yeni tərəfdaşlıq münasibətlərinin qurulmasına mühüm töhfə verəcəyinə əminliyini bildirdi.

Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri Li Syaolin Mehriban Əliyeva ilə görüşündən şərəf hissi duyduğunu deyərək bu görüşün gələcək əməkdaşlığın müzakirəsi baxımından əhəmiyyətini qeyd etdi. İlk dəfədir Azərbaycana səfər etdiyini deyən qonaq paytaxtımızın onda dərin təəssürat yaratdığını, Heydər Əliyev Mərkəzi və oradakı sərgilərlə tanışlıqdan məmnunluğunu ifadə etdi. Qonaq Heydər Əliyev Fondu ilə əməkdaşlığa görə təşəkkürünü bildirdi.

Görüşün sonunda Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva qonaqlara xatirə hədiyyəsi təqdim etdi.

# Xeyirxahlıq, mərhəmət və nəcib əməllər

## Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan proqram və layihələr sosial siyasətə böyük töhfələr verir

*Əvvəli 1-ci səh.*



"Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində respublika üzrə onlarca uşaq müəssisəsi əsaslı şəkildə təmir edilmiş, yeni avadanlıqla təchiz olunmuş, əlavə yardımçı binalar tikilmiş və kommunal şərait yaxşılaşdırılmışdır. Hər il "Təhsilə dəstək" layihəsi çərçivəsində fond Ermənistanın Azərbaycana təcavüzü nəticəsində qaçqın, məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərinə çanta və məktəb ləvazimatı hədiyyə edir.

2014-cü ildə isə Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramının təqdimatı olub. Təbii ki, icra edilən digər layihələr kimi, bu layihə də uğurlu olacaq, ölkəmizdə sosial problemlərin həllinə öz köməyini göstərəcək. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Pakistanda təbii fəlakət nəticəsində dağılan qızlar məktəbinin yenidən tikilməsi isə iki ölkə arasındakı strateji tərəfdaşlığa, ümumən müsəlman həmrəyliyinə Heydər Əliyev Fondunun böyük töhfəsi idi.

Təkcə bu il ərzində Mərdəkan qəsəbəsində yerləşən "İnci" körpələr evi-uşaq bağçası, Nərimanov rayonunda 80 saylı körpələr evi-uşaq bağçası, Maştağa qəsəbəsində 9 saylı sanator tipli körpələr evi-uşaq bağçası və Bayıl yaşayış sahəsində 157 nömrəli uşaq bağçası Heydər Əliyev Fondunun "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" proqramı çərçivəsində yenidən qurulduqdan sonra istifadəyə verilib.

Ölkəmizin hər tərəfində geniş vüsət alan xəstəxana tikintisində, diaqnostika və müalicə mərkəzlərinin, talassemiya və digər müxtəlif xəstəliklərdən müalicə olunan uşaqlar üçün xüsusi tibb müəssisələrinin yaradılmasında, uşaq evlərinin, internat məktəblərinin, uşaq bağçalarının yenidən qurulmasında biz Mehriban xanım Əliyevanın əzmkarlığını, Prezident İlham Əliyevin sosial siyasətinə dəstəyini görürük. "Diabetli uşaqlara ən yüksək qayğı", "Tibb müəssisələrinin yenidən qurulması və inşası", "Talassemiyasız həyat naminə" kimi proqram və layihələr ölkəmizdə həyata keçirilən sosial siyasətin daha dolğun məzmun kəsb etməsində özünü göstərir.

Göründüyü kimi, Mehriban xanım Əliyevanın fəaliyyətində sosial məsələlər, həssas vətəndaş qruplarına, sosial qayğıya daha çox ehtiyacı olanlara, uşaqlara kömək göstərilməsi prioritet təşkil edib. Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunduğu ilk günlərdən məlum oldu ki, xeyirxahlıq və daha çox sosial qayğıya ehtiyacı olan vətəndaşlara yüksək diqqət onun fəaliyyətində əsas istiqamətlərdən birini təşkil edəcək. Bu mənada Mehriban xanım Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti kimi öz vəzifəsinin icrasına məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasından, 2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsindən başlaması onun əsl vətəndaşlıq mövqeyindən, xüsusən sosial məsələlərə olan həssas münasibətindən xəbər verirdi.

Məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması ilə bağlı müşavirənin keçirilməsi və qarşıya qoyulan vəzifələr onu göstərdi ki, əhalinin xüsusi qayğıya ehtiyacı olan qruplarının, o cümlədən məcburi köçkünlərin sosial məsələlərinin yoluna qoyulması Birinci vitse-prezidentin xüsusi diqqətində olacaq. Aprel döyüşlərində hərbi rəşadət göstərmiş döyüşçülərin nümayəndələri ilə görüşü isə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti olaraq Mehriban Əliyevanın respublikamızda həssas təbəqədən olan insanların, əlilliyi olan şəxslərin sosial müdafiəsinə, reabilitasiya və cəmiyyətə inteqrasiya məsələlərinə xüsusi diqqətinin əyani göstəricisidir. Bununla bağlı keçirilən layihə çərçivəsində döyüşlərdə xəsarət almış əsgər və zabitlərimiz dünyanın müasir protez istehsalçıları olan Almaniyanın "Ottobock", İslandiyanın "Ossur", İngiltərənin "RSL Steeper" və ABŞ-ın "Fillauer" şirkətlərinin yüksək texnologiyalı məhsulları ilə təmin olunublar.

Hər birimizin qarşısında duran mühüm vəzifələrdən birincisi vətəndaşlıq mövqeyindən çıxış etmək, ölkənin daha da qüdrətlənməsi üçün çalışmaq və Prezident İlham Əliyevin siyasi kursuna dəstək verməkdir. Bu şərəfli vəzifələr naminə çalışmaq və əlindən gələni əsirgəməmək hər bir azərbaycanlının müqəddəs borcudur. Bu baxımdan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın həyata keçirdiyi fəaliyyət əsl nümunədir.

Birinci vitse-prezident Mehriban Əliyevanın Prezident İlham Əliyevin silahdaşı kimi yenə də dövlətimizə və xalqımıza layiqincə xidmət edəcəyi, Azərbaycanın daha da çiçəklənməsinə öz töhfələrini verəcəyi, xüsusən sosial qayğıya ehtiyacı olan insanların yanında olacağı aydın idi. Və elə ilk günlərdən bu qənaət özünü uğurla doğrultmağa başladı. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən və qayəsində xeyirxahlıq, xeyriyyəçilik və savab əməllər dayanan proqram və layihələr bütün ölkə ictimaiyyəti tərəfindən dərin rəğbətlə qarşılanır. Bütün bunlar həm də Prezident İlham Əliyevin yürütdüyü sosial siyasətin daha böyük uğur qazanmasına mühüm və layiqli töhfələr verir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# “Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1217-VQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və “Azərbaycan Respublikasında yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 28 noyabr tarixli 893 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq “Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi müddətləri ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1217-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

1. “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin təsvirinin, spesifikasiyasının və nümunəsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 7 fevral tarixli 577 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 66; 2013, № 2, maddə 125, № 12, maddə 1543; 2015, № 10, maddə 1141; 2017, № 12 (I kitab), maddə 2285) 4-cü hissəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

2. “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 fevral tarixli 586 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 75; 2013, № 12, maddə 1542; 2014, № 5, maddə 477; 2015, № 10, maddə 1141; 2016, № 8, maddə 1384; 2017, № 12 (I kitab), maddə 2285) preambulasında, 1.9-cu bəndində və 6-cı hissəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

3. “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsinin təsvirinin, spesifikasiyasının və nümunəsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 7 fevral tarixli 577 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 fevral tarixli 831 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 2, maddə 125, № 12, maddə 1544; 2015, № 10, maddə 1141; 2017, № 12 (I kitab), maddə 2285) 2-ci hissəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

4. “Azərbaycan Respublikasının 1999-cu il 8 dekabr tarixli 773-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 622-IVQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 16 may tarixli 898 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 519, № 12, maddə 1547; 2015, № 10, maddə 1141; 2017, № 12 (I kitab), maddə 2285) 4-cü hissəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

5. “Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikasının 2013-cü il 19 aprel tarixli 626-IVQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 14 oktyabr tarixli 134 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestrinin aparılması qaydası haqqında Əsasnamə”də dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 16 may tarixli 899 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 5, maddə 520, № 12, maddə 1550; 2015, № 10, maddə 1141; 2016, № 6, maddə 1054; 2017, № 5, maddə 778, № 12 (I kitab), maddə 2285) 5-ci hissəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

6. “Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi haqqında Əsasnamənin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 244 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 23 oktyabr tarixli 4 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, №10, maddə 1149, № 12, maddə 1548; 2015, № 10, maddə 1141; 2017, № 12 (I kitab), maddə 2285) 2-ci hissəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

7. “Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında” Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 19 dekabr tarixli 684 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 15 noyabr tarixli 22 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 11, maddə 1326, № 12, maddə 1541; 2015, № 10, maddə 1141; 2017, № 12 (I kitab), maddə 2285) 2-ci hissəsində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

8. “Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 86-VQD nömrəli Qanununun tətbiqi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 767 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 231, № 12, maddə 2079; 2017, № 12 (I kitab), maddə 2285) preambulasında “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

9. “Azərbaycan Respublikasında yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 28 noyabr tarixli 893 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1495; 2015, № 10, maddə 1192; 2016, № 8, maddə 1384; 2017, № 4, maddə 578, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2285) 5-ci hissəsində və 7.2-ci bəndində “2019-cu il yanvarın” sözləri “2018-ci il sentyabrın” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 avqust 2018-ci il*

# Novruz MƏMMƏDOV: “Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı inkişaf strategiyası Azərbaycanın iqtisadi qüdrətinin artırılmasında mühüm əhəmiyyət kəsb edir”

Avqustun 31-də Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə “Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün iş planı”nda nəzərdə tutulmuş məsələlərə dair aidiyyəti qurumların iştirakı ilə iclas keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda iki məsələ - əhalinin real gəlirlərinin artırılması məqsədilə əmək ödənişləri sisteminin təkmilləşdirilməsi və iqtisadi risklərin qarşılanması əsasında dayanıqlı sosial ödənişlər sisteminin formalaşdırılması; regionlarda aktiv əmək bazarı tədbirlərinin genişləndirilməsi və əhalinin əmək bazarına çevik inteqrasiyası üzrə təkliflər müzakirə olunub.

Azərbaycanda son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə sürətli inkişaf modelinin formalaşmasına diqqəti yönəldən Baş nazir Novruz Məmmədov bu istiqamətdə böyük işlərin görüldüyünü vurğulayıb. Həyata keçirilən uğurlu siyasət nəticəsində ölkəmizdə dinamik quruculuq işlərinin getdiyini, makroiqtisadi sabitliyin təmin olunmasında, əhalinin rifah halının yaxşılaşmasında, o cümlədən sosial sferada, sənayedə, aqrar sektorda, infrastrukturun təkmilləşdirilməsində, özəl sahədə ciddi irəliləyişlərin olduğunu deyən Baş nazir Novruz Məmmədov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən davamlı inkişaf strategiyası Azərbaycanın iqtisadi qüdrətinin artırılmasında mühüm əhəmiyyət kəsb edir.

Diqqətə çatdırılıb ki, Azərbaycan vətəndaşlarının əmək hüquqlarının qorunması, işçilərin maddi, sosial tələbatlarının ödənilməsi və layiqli həyat səviyyələrinin təmin edilməsi dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında ölkədə həyata keçirilən sosial-iqtisadi siyasətin prioritetlərindəndir. Son illər ərzində əmək münasibətləri iştirakçılarının hüquq bərabərliyinin təmin edilməsi, qanuni mənafelərinin qorunması, əmək müqaviləsi üzrə öhdəliklərinin icrasına hüquqi təminatın yaradılması istiqamətində sistemli və məqsədyönlü tədbirlər həyata keçirilib.

Gündəlikdə duran məsələlərə dair əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin məruzəsi dinlənilib.

Sonra hər iki məsələ ətrafında geniş fikir mübadiləsi aparılıb. Əhalinin real gəlirlərinin artırılması məqsədilə əmək ödənişləri sisteminin təkmilləşdirilməsi və iqtisadi risklərin qarşılanması əsasında dayanıqlı sosial ödənişlər sisteminin formalaşdırılması ilə bağlı müzakirələr olub.

Həmçinin regionlarda aktiv əmək bazarı tədbirlərinin genişləndirilməsi və əhalinin əmək bazarına çevik inteqrasiyasına dair təkliflər nəzərə alınmaqla, əmək bazarının mövcud vəziyyətinin regionlar üzrə təhlil edilməsi, hər bir region üzrə əmək resurslarının balansının tərtib olunması, ərazi məşğulluq proqramlarının hazırlanması, regionlarda məşğulluğa kömək göstərən yerli əlaqələndirmə komitələrinin fəaliyyətinin genişləndirilməsi və əlaqələndirilməsi, səyyar əmək yarmarkalarının təşkil edilməsi qərara alınıb.

İclasa yekun vuran Baş nazir Novruz Məmmədov ölkə əhalisinin rifah halının yaxşılaşdırılması üçün sosial sahənin prioritet mahiyyətini diqqətə çatdıraraq sosialyönümlü məsələlərin həlli zamanı qarşıya çıxan problemlərin vaxtında aradan qaldırılması və iclasda müzakirə olunan məsələlərin icrası ilə bağlı Nazirlər Kabinetinin aidiyyəti qurumlarına müvafiq tapşırıqlar verib.

# Çinin nümayəndə heyəti ilə Milli Məclisdə görüş

Avqustun 31-də Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri ölkəmizdə səfərdə olan Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, işçi qrupunun rəhbəri, ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov ölkələrimiz arasındakı əlaqələrin çox qədim tarixə malik olduğunu deyib. Qeyd edilib ki, ulu öndər Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra Çin ilə əlaqələr yeni müstəviyə qalxıb. İki ölkə arasında çox geniş iqtisadi, siyasi, elmi və dostluq əlaqələri qurulub. Həmçinin bildirilib ki, münasibətlərin yüksələn xətlə inkişafında dövlətlərimizin başçılarının qarşılıqlı səfərlərinin böyük rolu var.

Çin Kommunist Partiyasının 2017-ci ilin oktyabrında keçirilmiş XIX qurultayı barədə danışan Siyavuş Novruzov deyib ki, həmin qurultayda qəbul olunmuş qərarlar təkcə Çin xalqı üçün deyil, həm də Orta Asiya ölkələri və Azərbaycan üçün də mühüm əhəmiyyət kəsb edir. Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasındakı yaxşı münasibət xalqlarımızın dostluğunun möhkəmlənməsinə, iqtisadi əlaqələrin güclənməsinə, beynəlxalq arenada dövlətlərimizin bir-birinin ərazi bütövlüyünü dəstəkləməsinə və digər məsələlərdə birgə fəaliyyətinə yaxından kömək edir.

Heydər Əliyev Fondunun fəaliyyəti barədə danışan Siyavuş Novruzov fondun ölkə daxilində və xaricində həyata keçirdiyi mühüm layihələri xüsusi qeyd edib. Bildirilib ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti mədəniyyətlər, dinlər, dövlətlər və xalqlar arasında münasibətlərin daha da yaxınlaşmasına böyük töhfə verir.

Parlamentlərarası əlaqələrdən söz açan Siyavuş Novruzov deyib ki, Çinlə işçi qrupu Milli Məclisdə ən böyük işçi qruplarından biridir. Parlamentin beş komitəsinin sədrləri də bu qrupun üzvləridir.

Azərbaycana ilk dəfə səfər etdiyini deyən Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının sədri xanım Li Syaolin ölkəmizə Heydər Əliyev Fondunun dəvəti ilə gəldiyini qeyd edib. Azərbaycana səfəri çərçivəsində bir sıra yüksək səviyyəli görüşlər keçirdiyini söyləyən qonaq iki ölkə arasındakı əlaqələrin inkişafının əhəmiyyətini xüsusi vurğulayıb.

“Ölkənizin odlar diyarı, xalqınızın qonaqpərvər olduğunu bilirdim və bunun bir daha şahidi oldum. Azərbaycanlıların Çin xalqına istiqanlılığını gördüm. Müasir Azərbaycanın inkişaf səviyyəsi, Bakının gözəlliyi bizi heyran etdi” - deyə Li Syaolin vurğulayıb.

Diqqətə çatdırılıb ki, beş il bundan əvvəl Çin Xalq Respublikasının Sədri Si Cinpin “Bir kəmər, bir yol” iqtisadi inkişaf strategiyasını elan edib. Biz bu təşəbbüsün Azərbaycan hökuməti və xalqı tərəfindən dəstəkləndiyini görürük. “Bir kəmər, bir yol” çərçivəsində iqtisadiyyat, qanunvericilik, humanitar sahələrdə əməkdaşlığı genişləndirmək mümkündür.

Qonaq, həmçinin vurğulayıb ki, cari ilin noyabrında Şanxayda təşkil olunacaq birinci “Beynəlxalq İdxal Sərgisi”ndə Azərbaycan nümayəndə heyəti də iştirak edəcək. Sərgidə Azərbaycanın şərab və digər məhsulları nümayiş olunacaq.

# Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir.

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq avqustun 31-də ədliyyə naziri Fikrət Məmmədov Hacıqabul rayonundakı Heydər Əliyev Mərkəzində Hacıqabul, Şirvan və Kürdəmir rayonlarından olan vətəndaşların qəbulunu keçirib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə öz həllini tapıb, digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

* * *

Baş Prokurorluğun mətbuat xidmətindən bildiriblər ki, avqustun 31-də Baş prokuror Zakir Qaralov Saatlı Rayon Prokurorluğunun inzibati binasında Şirvan şəhər, Saatlı, Sabirabad, Salyan və Hacıqabul rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda Baş prokuror bölgədə yaşayan 17 vətəndaşın müraciətini dinləyərək qaldırılan məsələlər üzrə onların qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, digər müraciətlər isə araşdırılması üçün nəzarətə götürülüb.

Bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edən vətəndaşlar göstərilən diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

* * *

Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə avqustun 31-də Naftalan şəhərində vətəndaşlarla görüşüb.

Görüşdə Naftalanla yanaşı, Gəncə şəhər, Göygöl, Samux, Goranboy, Daşkəsən, Kəlbəcər və Xocalı rayon sakinləri də iştirak edib.

Sonra vətəndaşların müraciətləri dinlənilib, qaldırılan məsələlərin həlli üçün nazirliyin müvafiq qurumlarına tapşırıqlar verilib. Əksər müraciətlər yerində müsbət həllini tapıb.

Müraciətlər telekommunikasiya, internet, poçt xidmətləri, yol təmir-tikintisi, yeni marşrut xəttinin açılması, marşrut qrafiklərində dəyişiklik edilməsi, işə qəbul kimi məsələləri əhatə edib.

Bəzi vətəndaşlar tərəfindən qaldırılan məsələlər nazirliyin səlahiyyətlərinə aid olmadığı üçün müvafiq qurumlara ünvanlanması üzrə qeydiyyata alınıb.

* * *

Avqustun 31-də ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Masallı şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Masallı, Yardımlı, Lənkəran, Astara və Lerik rayonlarının sakinlərini qəbul edib. Tədbir mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən təşkil olunub.

Nazirliyin mətbuat xidmətindən bildiriblər ki, qəbul zamanı ətraf mühitin mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik və digər məsələlərlə bağlı vətəndaşların müraciət və təklifləri dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerindəcə həll olunub, digərləri üzrə isə nazirliyin aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin yerindəcə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirərək göstərilən diqqət və qayğıya görə ölkə başçısına öz minnətdarlıqlarını ifadə ediblər.

* * *

Avqustun 31-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Şəki şəhərində məcburi köçkünlər üçün salınmış Yeni Çələbixan qəsəbəsində vətəndaşları qəbul edib. Qəbulda Şəki, Qax, Zaqatala, Balakən, Oğuz və Qəbələdə müvəqqəti məskunlaşmış məcburi köçkünlərin müraciətlərinə baxılıb.

Komitədən bildiriblər ki, məcburi köçkünlərin müraciətləri əsasən mənzil-məişət, status, işəgötürmə, kommunal xidmətlər və digər sosial problemlərin həlli ilə əlaqədar olub. Komitə sədri onları fərdi qaydada dinləyib, müraciətlər qeydə alınıb.

Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Dövlət komitəsinin sədri digər müraciətlərin qısa müddətdə araşdırılacağını və müvafiq tədbirlərin görüləcəyini bildirib.

***AZƏRTAC***

# Azərbaycan Konstitusiya Məhkəməsinin nümayəndə heyəti Qazaxıstanda keçirilmiş beynəlxalq konfransda iştirak edib

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin başçılıq etdiyi nümayəndə heyəti avqustun 28-dən 30-dək Qazaxıstan Respublikasının Konstitusiya Gününə həsr edilmiş “Konstitusiya: qanunun aliliyi, vətəndaş cəmiyyəti və müasir dövlət dəyərlərinin təcəssümü” mövzusunda keçirilmiş beynəlxalq konfransda iştirak etmək üçün Qazaxıstan Respublikası Konstitusiya Şurasının sədri Kayrat Maminin dəvəti ilə Astana şəhərində səfərdə olub.

Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirin əvvəlində Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin konfrans iştirakçılarına ünvanlanan məktubu səsləndirilib.

Konfransın praktiki hissəsində konstitusiya islahatları konstitusiya inkişafının əsası, konstitusiya ədalət mühakiməsinin təyinatı, konstitusiya şikayəti vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi üçün mühüm vasitə kimi və digər məsələlərə dair çıxışlar edilib, fikir mübadiləsi aparılıb.

Tədbirdə Avropa Şurası Venesiya Komissiyasının məsul şəxsləri, Rusiya Federasiyası, Türkiyə, Ukrayna, Bolqarıstan, Latviya, Belarus, Gürcüstan, Almaniya, İordaniya, Əlcəzair və digər ölkələrin Konstitusiya məhkəmələrinin nümayəndələri və elm xadimləri iştirak ediblər.

Konfransda çıxış edən sədr Fərhad Abdullayev Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun qəbul etdiyi son qərarlardan danışıb, ölkəmizdə aparılmış konstitusiya-hüquq islahatlarının vacibliyini konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayev konfransda iştirak edən nümayəndə heyətlərinin rəhbərlərini Prezident iqamətgahında qəbul edib.

Səfər zamanı Qazaxıstan Konstitusiya Şurasının sədr və üzvləri ilə görüşlər keçirilib, hüquqi məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Görüşlərdə Azərbaycanın Qazaxıstandakı səfiri Rəşad Məmmədov iştirak edib.







# Avrasiyanın geostrateji mərkəzi, dialoq və əməkdaşlıq məkanı

## Son 8 ayda Bakıda keçirilən beynəlxalq forumlar, konfranslar, sərgilər Azərbaycanın etibarlı tərəfdaşlığa hər zaman açıq ölkə olduğunu təsdiqləyir

*Əvvəli 1-ci səh.*

Ölkəmizin dünyada sülh və sabitliyə dəstəyini ifadə edən mövqeyi Prezident İlham Əliyevin siyasi fəaliyyətində tam əksini tapır. Dövlət başçısının həyata keçirdiyi məqsədyönlü siyasət dünyada irqi, milli, etnik və digər zəmində baş verən qarşıdurmalar fonunda Qafqazda sülhə və onun qorunmasına xidmət edir.

Bu ilin son 8 ayında Azərbaycanda keçirilən beynəlxalq toplantılara nəzər yetirsək görərik ki, həqiqətən də Prezident İlham Əliyevin yürütdüyü siyasət ölkəmizi dünyada həm də beynəlxalq toplantıların keçirildiyi məkan kimi tanıdıb.

Bu il ölkəmizdə fevral ayında "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin dördüncü iclası keçirildi. Heydər Əliyev Mərkəzində baş tutan toplantıda Prezident İlham Əliyev, Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti, Məşvərət şurasının həmsədri Maroş Şefçoviç, həmçinin "Cənub qaz dəhlizi"nin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri iştirak etdilər.

Toplantıda çıxış edən dövlət başçısı vurğuladı ki, 2015-ci ildə Azərbaycan "Cənub qaz dəhlizi" Məşvərət Şurasının yaradılması təşəbbüsü ilə çıxış edib. Avropa Komissiyası bu təşəbbüsü dərhal dəstəkləyib və dördüncü toplantı Avropa Komissiyası ilə Azərbaycan tərəfindən təşkil olunub. Artıq dördüncü dəfədir ki, bu görüşlərin keçirildiyini söyləyən dövlət başçısı vurğuladı ki, bu əməkdaşlıq formatı səmərəli olduğunu və çox yaxşı nəticələrə yol açacağını sübut edib: " "Cənub qaz dəhlizi" layihəsi Azərbaycanın indiyədək çox uğurlu olan və Azərbaycana öz iqtisadiyyatını şaxələndirməyə kömək edən enerji strategiyasının əsas elementlərindən biridir. Biz enerji ehtiyatlarından istifadə edərək qeyri-neft sektoru, insan kapitalı və infrastruktura investisiya yatırmışıq, bununla da iqtisadiyyatımızın uzunmüddətli davamlı inkişafını təmin etmişik".

Məşvərət şurasının həmsədri Maroş Şefçoviç isə dedi ki, Avropa İnvestisiya Bankı bu layihəyə maliyyə vəsaiti ayırıb və bu, Avropa İnvestisiya Bankının tarixində bir layihəyə ayrılmış ən böyük maliyyə dəstəyidir.

Dördüncü toplantının yekununda "Birgə Bəyannamə", eləcə də "Albgaz" və "SOCAR Balkans", həmçinin "Plinacro", "BH Gas" və "Montenegro Bonus" şirkətləri arasında niyyət məktubları imzalandı.





### VI Qlobal Bakı Forumu - 50-dən çox ölkədən 500-dən artıq nümayəndə

Mart ayında isə Bakıda "İnklüziv cəmiyyətlərin qurulması üçün fərqliliklərin aradan qaldırılması" mövzusunda VI Qlobal Bakı Forumu keçirildi. Martın 15-17-də təşkil olunan forumda Albaniya Prezidenti İlir Meta, Makedoniya Prezidenti George İvanov, Moldova Prezidenti İqor Dodon, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Mladen İvaniç, Türkiyənin sabiq Baş naziri Binəli Yıldırım, xarici işlər naziri Mövlud Çavuşoğlu, Fələstinin Baş nazirinin müavini Ziad Abu Amr, Bosniya və Herseqovinanın hökumət başçısının müavini Mirko Sarovic, Rumıniya Baş nazirinin müavini Ana Birçall iştirak etdilər.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva təhsilin və mədəniyyətin inkişafındakı xidmətlərinə görə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin qızıl medalı ilə təltif edildi.

Üç gün davam edən bu mötəbər tədbirə 50-dən çox ölkədən 500-dən artıq nümayəndə, o cümlədən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü olan 47 hazırkı və keçmiş dövlət və hökumət başçıları, beynəlxalq təşkilatların rəhbərləri, tanınmış ictimai-siyasi xadimlər, alimlər qatılmışdılar.

Açılış mərasimində çıxış edən dövlət başçısı İlham Əliyev bu forumun qlobal gündəlikdə duran məsələlərin müzakirəsi məqsədilə kifayət qədər qısa müddət ərzində dünya platformalarından birinə çevrildiyini söylədi. Bildirdi ki, Azərbaycan artıq bir çox beynəlxalq tədbirlərə evsahibliyi edib. Onların arasında Bakı Beynəlxalq Humanitar Forumunu, mütəmadi olaraq keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu, Dünya Dini Liderlərinin Forumunu, BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumunu qeyd etmək olar. Daha sonra - 2015-ci ildə ilk Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları keçirilib. Bütün bu tədbirlər əməkdaşlığa xidmət edir, körpülər salır, müxtəlif ölkələrin və dinlərin təmsilçiləri, fərqli fikirli insanlar arasında daha böyük anlaşmanı təmin edir.

İki gün davam edən VI Qlobal Bakı Forumunda dünyaya önəmli mesajlar çatdırıldı və hər zamankı kimi bu dəfə də Azərbaycanda mövcud olan yüksək qonaqpərvərlik dəyərləndirildi.

Forum çərçivəsində martın 18-19-da VII Beynəlxalq Kitab Sammiti də təşkil olundu. ABŞ Konqres Kitabxanasının və Misirin İsgəndəriyyə Kitabxanasının birgə təşəbbüsü ilə keçirilən sammitdə milli inkişafda, mədəni irsin qorunmasında və ötürülməsində, gələcəyin formalaşmasında kitabın əhəmiyyəti, eləcə də milli kitabxanaların rolu, kitabxanaların gələcəyi mövzuları müzakirə olundu.

### Qoşulmama Hərəkatı dünyada öz aktuallığını daha da artırır

Aprelin 5-6-da Bakı Konqres Mərkəzində "Davamlı inkişaf naminə beynəlxalq sülh və təhlükəsizliyin təşviq edilməsi" mövzusunda Qoşulmama Hərəkatının nazirlər konfransı keçirildi.

Nazirlər konfransında Qoşulmama Hərəkatında iştirak edən, həmçinin hərəkat yanında müşahidəçi statusu almış dövlətlərin və beynəlxalq təşkilatların nümayəndələri, xüsusi qonaq qismində dəvət olunan ölkə və təşkilatların təmsilçiləri olmaqla ümumilikdə 800-dən artıq şəxs iştirak etdi. Əsas məqsədi beynəlxalq hüquqa hörmət əsasında dünyada sülh, təhlükəsizlik və inkişafa yardım etmək olan Qoşulmama Hərəkatı müasir dünyada öz aktuallığını daha da artırır. Hərəkat daxilində razılaşdırılmış mövqe BMT Baş Assambleyası çərçivəsində qərarların qəbuluna təsir baxımından əhəmiyyətli rola malikdir. Azərbaycan Respublikası da Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin toplantısına və 2019-cu ildə Bakıda keçiriləcək zirvə görüşünə evsahibliyi, 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrlik etməklə onun məqsəd və məramlarının təşviq olunmasına, beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın güclənməsinə əsaslı töhfəsini verir.

Qoşulmama Hərəkatının 2019-cu ildə Bakıda keçiriləcək 18-ci sammitinin böyük rəmzi mənası var. Belə ki, Avropa qitəsi 1989-cu il Belqrad sammitindən 30 il sonra Qoşulmama Hərəkatında iştirak edən ölkələrin dövlət və hökumət başçılarının görüşünə yenidən evsahibliyi edəcək. Bununla da Azərbaycan Qoşulmama Hərəkatının ruhuna və prinsiplərinə sadiq olduğunu bir daha bütün dünyaya nümayiş etdirəcək. Azərbaycan bu hərəkata 2011-ci ildə tamhüquqlu üzv olub. Qoşulmama Hərəkatında 120 dövlət iştirak edir. 17 dövlət və 10 beynəlxalq təşkilat isə hərəkat yanında müşahidəçi statusuna malikdir.



### Bəşəri dəyərlərin təbliği

Konfransda çıxış edən Prezident İlham Əliyev bildirdi ki, yarım əsrdən çoxdur Qoşulmama Hərəkatı bəşəri dəyərlərin təbliği ilə məşğuldur. Dünyanın ən böyük təşkilatlarından olan Qoşulmama Hərəkatı dünyada sabitlik, sülh və təhlükəsizliyin bərqərar olmasında vacib rol oynayır. Hərəkat beynəlxalq hüququn normalarına, ərazi bütövlüyü prinsiplərinə, bütün üzvlərin suverenliyinə və müstəqilliyinə sadiqdir.

Azərbaycanın bu hərəkatın nisbətən yeni üzvü olduğunu vurğulayan dövlət başçısı dedi ki, ölkəmiz beynəlxalq hüququn və ədalətin pozulmasının şahidi olub və bunu öz üzərində hiss edib. İyirmi beş ildən artıqdır ki, ölkəmizin ərazisinin bir hissəsi Ermənistanın işğalı altındadır və təəssüf ki, işğal bu günə qədər davam edir. Lakin Ermənistandan fərqli olaraq, Azərbaycan mədəniyyətlərarası, sivilizasiyalararası və dinlərarası dialoqun dünya səviyyəsində tanınmış mərkəzlərindəndir: "Biz multikulturalizm mərkəzlərindən biriyik. Azərbaycanda multikulturalizm dövlət siyasətidir. 2016-cı il ölkəmizdə "Multikulturalizm ili" elan edilib. Biz multikultural dəyərləri, dinlərarası sülh və əməkdaşlığı təbliğ edən çoxsaylı beynəlxalq tədbirlər təşkil etmişik. BMT-nin Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya Dini Liderlərinin Forumu, Bakıda mütəmadi qaydada təşkil olunan Mədəniyyətlərarası Dialoq Forumu və təşkil etdiyimiz digər beynəlxalq tədbirlər multikulturalizmə öz töhfəsini verir".

Prezident Azərbaycanın 10 il əvvəl "Bakı Prosesi"nin təşəbbüskarı olduğunu da xatırlatdı. Bildirdi ki, Azərbaycanın təşəbbüsünə əsasən, İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin dövlət rəsmiləri Bakıya dəvət edilib. Azərbaycan hər iki təşkilata üzv olan nadir dövlətlərdəndir. Bu iki təşkilatın toplam olaraq yüzdən artıq üzvü var və məqsədimiz onları bir araya gətirərək mədəniyyətlərarası dialoq, etnik və dini zəmində gərginliyin azalması, dünyada ksenofobiya hallarının ciddi şəkildə müzakirə olunması, habelə qarşılıqlı anlaşma üçün platformanın yaradılması idi: "Bizim təşəbbüsümüz bundan ibarət idi və o, BMT tərəfindən dəstəkləndi. Artıq "Bakı Prosesi" özünün onilliyini qeyd edir. Bu, misilsiz beynəlxalq platformadır ki, müsəlman dünyasını və Avropa dövlətlərini birləşdirir, bütün ölkələr üçün açıqdır və məqsəd müxtəlif dövlətlər, müxtəlif dinlər və etnik qrupların nümayəndələri arasında daha yaxşı anlaşma yaratmaqdır".

### Öz tarixi ilə qürur duyan Azərbaycan

Dövlət başçısı daha bir maraqlı məqama toxundu. Azərbaycan Qoşulmama Hərəkatının yeganə üzvüdür ki, "Expo 2025"ə öz namizədliyini irəli sürüb. Bu addımın özü göstərir ki, ölkəmiz bu cür mühüm qlobal tədbiri keçirməyə qadirdir. Buna görə də Azərbaycan özünün tarixi ilə qürur duyur.

Müstəqilliyini cəmi 26 il öncə bərpa etmiş ölkə üçün həmin tədbir qazanılan nailiyyətləri, əldə edilə biləcək nəticələri nümayiş etdirmək fürsəti olardı: "Əgər siz heç bir tərəfdən asılı deyilsinizsə, siz bir çox nəticələri əldə edə bilərsiniz. Buna görə mən namizədliyimizə gəldikdə, üzv dövlətlərin dəstəyinə ümid edirəm və bu, həmrəylimizin növbəti təzahürü olacaqdır. Biz bir-birimizi dəstəkləməliyik. Qarşımızda demək olar ki, oxşar çağırışlar, problemlər dayanır. Keçmişimiz də, müəyyən dərəcədə, oxşardır. Hamımız öz həyatımızı, müstəqil həyat sürməyi arzulayırıq. Biz hamımız istəmirik ki, kimsə bizdən nə etməyi tələb etsin, işlərimizə müdaxilə etsin, bizə diktə etsin. Bunun üçün biz güclü olmalıyıq. Biz yalnız birlikdə olduqda güclü ola bilərik".

### 20 ölkədən 277 şirkətin iştirak etdiyi "Bütün dünya - bir sərgi"

Aprelın 6-7-də Bakı Expo Mərkəzində "AITF-2018" XVII Azərbaycan Beynəlxalq turizm və səyahətlər və "HOREX Caucasus-2018" XII Qafqaz Beynəlxalq mehmanxana, restoran, supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri təşkil olundu.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sərgidə iştirak etdilər. "Bütün dünya - bir sərgi" şüarı altında keçirilən builki sərgidə 20 ölkəni təmsil edən 277 şirkət iştirak edirdi. İştirakçılar arasında Azərbaycan, Bolqarıstan, Çexiya, Dominikan, Gürcüstan, İndoneziya, İtaliya, İsveçrə, Mərakeş, Rusiya, Sloveniya, Tailand, Türkiyə və digər ölkələri təmsil edən şirkətlər yer almışdı. Ziyarətçilər 90-dan çox xarici turizm istiqaməti, eləcə də ölkə daxilində istirahət imkanları ilə tanış ola bildilər. Budəfəki sərgidə müxtəlif hava yolları və hotel şəbəkələri, eləcə də turizm sahəsi üzrə digər xidmət növləri təqdim edildi.

XII Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgisi məhsul və xidmətlərin təqdim olunması, aparıcı sənaye şirkətləri, eləcə də alıcı və tərəfdaşlarla səmərəli fikir və təcrübə mübadiləsi aparmaq baxımından mühüm əhəmiyyət daşıyırdı.

### Həmrəyliyi, tərəfdaşlığı gücləndirəcək konfrans

Aprelin 18-də isə Bakıda İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələrinin Gənclər və İdman Nazirləri Konfransının 4-cü sessiyası keçirildi. Dördüncü sessiyada iştirak edən gənclər və idman nazirləri ilə görüşən dövlət başçısı bildirdi ki, Azərbaycan hər zaman belə mühüm beynəlxalq tədbirə evsahibliyi edir. Bu görüş də ölkələrimiz arasında həmrəyliyi, tərəfdaşlığı gücləndirəcək və əməkdaşlığımızın inkişafında çox müsbət dinamika yaradacaq.

Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının çox fəal üzvü olduğunu söyləyən Prezident bəyan etdi ki, ölkəmiz hər zaman qardaş müsəlman dövlətlərinin dəstəyini hiss edir və öz növbəsində, bütün beynəlxalq təşkilatlarda qardaşlarını dəstəkləyir və bundan sonra da həmrəyliyin və tərəfdaşlığın gücləndirilməsi siyasətini davam etdirəcək.

Daha sonra İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumu İdarə Heyətinin qərarına əsasən, İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun yaranması və inkişafındakı təşəbbüs və roluna, İslam Əməkdaşlıq Təşkilatı gəncliyinin inkişafına yönəlmiş fəaliyyətlərə və quruma üzv ölkələr arasında həmrəyliyin gücləndirilməsinə verdiyi daimi və müstəsna dəstəyə görə Prezident İlham Əliyevə İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun "Gənclərin hamisi" ilk fəxri nişanı və xatirə hədiyyəsi təqdim olundu.

### Beynəlxalq idman yarışlarına yüksək səviyyəli evsahibliyi

Aprelin 27-29-da Bakıda "Formula-1" Azərbaycan qran-prisinin 3-cü mərhələsi baş tutdu. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva "Formula-1" üzrə dünya çempionatının dördüncü mərhələsinin - Azərbaycan qran-prisinin əsas yarışına baxıblar. Yarışın qalibi olan Luis Hamiltona kuboku dövlət başçısı təqdim etdi.

Dünyada yarım milyard tamaşaçı auditoriyası olan "Formula-1" yarışının növbəti dəfə Bakıda keçirilməsi ölkəmizin beynəlxalq idman aləmində qazandığı uğurları bir daha əks etdirir. Son illərdə birinci Avropa Oyunlarına, IV İslam Həmrəyliyi Oyunlarına və bir çox nüfuzlu beynəlxalq yarışlara uğurla evsahibliyi edən paytaxt Bakının "Formula-1" kimi mühüm yarışı da yüksək səviyyədə təşkil etməsi bir daha Azərbaycanın idman dövləti olduğunu, bu missiyanın ölkəmizin timsalında hər zaman özünü doğrultduğunu təsdiqləyir. Bütün bunlar ölkəmizin dünyada getdikcə artan nüfuzundan, siyasi və iqtisadi sahədə qazandığı uğurların yetərincə olmasından qaynaqlanır. Bu həm də onu göstərir ki, qədim tarixə, zəngin mədəniyyətə, milli mənəvi dəyərlərə, ən əsası da parlaq idman ənənələrinə malik ölkəmiz qarşıya qoyulan hər bir məqsədə, hər bir niyyətə uğurla çatır.

Artıq 3-cü dəfə bu mötəbər yarışı qəbul edən Bakı dünya tamaşaçılarına və şəhərimizin qonaqlarına maraqlı idman bayramı yaşatmaqla yanaşı, Azərbaycanın belə mötəbər yarışlara uğurla evsahibliyi etdiyini nümayiş etdirdi. Qarşıda hələ neçə-neçə mötəbər beynəlxalq yarışların keçiriləcəyi paytaxtımız yenə də dünyanın diqqət mərkəzinə çevrildi. "Formula-1" tamaşaçıları ölkəmizdə gedən inkişaf proseslərinin şahidi oldular.

### Real imkanların yaradıldığı etibarlı platforma

May ayının 16-da Bakı Expo Mərkəzində XXIV Azərbaycan Beynəlxalq Qida Sənayesi "World Food Azerbaijan 2018" və XII Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro 2018" sərgiləri, mayın 29-da isə həmin məkanda XXV yubiley Beynəlxalq "Xəzər Neft və Qaz-2018" sərgisi təşkil olunub.

Bu sərgilərdə Prezident İlham Əliyev iştirak edib.

Ötən illə müqayisədə bu il "World Food Azerbaijan" və "Caspian Agro" sərgiləri həm iştirakçıların sayı, həm də ekspozisiya sahəsi baxımından 12 faiz artım nümayiş etdirib. Sərgilərə dünyanın 34 ölkəsindən 402 şirkət qatılıb və bu şirkətlərin 70 faizini xarici, 30 faizini isə yerli istehsalçı və distribütorlar təşkil edib. Bu ölkələrin ticarət və sənaye palatalarının dəstəyi ilə şirkətlərin böyük milli qruplarla iştirakı sərginin vizit kartına çevrilib. Bu il sərgilərdə dünyanın 10 ölkəsini təmsil edən 12 milli və regional qrup iştirak edib.

Hər iki sərgi keçirildiyi illər ərzində özünü qida sənayesi üzrə avadanlığın, məhsul və xidmətlərin nümayiş olunduğu, eləcə də müştərilər tapmaq, biznes tərəfdaşları ilə mövcud əlaqələri möhkəmləndirmək və yeni satış bazarlarına çıxmaq üçün imkanların yaradıldığı etibarlı platforma kimi doğrultmağa müvəffəq olub.

"Xəzər Neft və Qaz" sərgisinə gəldikdə isə builki mərasim çox əlamətdar bir tarixə təsadüf edib. Həmin gün "Cənub qaz dəhlizi"nin açılış mərasimi olub. Öncə onu vurğulayaq ki, birinci sərgi 1994-cü ildə, elə həmin ilin sentyabr ayında Xəzər hövzəsində karbohidrogen ehtiyatlarının genişmiqyaslı işlənilməsinin əsas istiqamətlərini müəyyən edən və ölkəmizin neft tarixində yeni səhifə açan "Əsrin müqaviləsi"nin imzalanması ərəfəsində keçirilib. O vaxtdan etibarən "Xəzər Neft və Qaz" sərgisi neft, qaz və energetika sahəsinin aparıcı mütəxəssislərinin görüşdüyü, əməkdaşlığa dair saziş və müqavilələrin imzalandığı platformaya çevrilib. Ötən dövrdə sərgilərdə dünyanın 70-dən çox ölkəsini təmsil edən təxminən 7500 şirkət iştirak edib. Hər il sərginin açılış mərasimində Prezident İlham Əliyevin iştirak etməsi bu beynəlxalq tədbirin yüksək statusunu bir daha təsdiq edir. Builki sərgidə 38 ölkədən 312 neft-qaz şirkəti iştirak edir. Belarus, İtaliya və Rusiya tədbirdə milli qruplarla təmsil olunub.

### Tarixi bir gündə reallaşan yubiley sərgisi

Əvvəldə qeyd etdiyimiz kimi, may ayının 29-u həm də Azərbaycan tarixinə qızıl hərflərlə yazılıb. Dəyəri 40 milyard dollar olan "Cənub qaz dəhlizi"nin rəsmi açılış mərasimi keçirildi.

Mərasimdə çıxış edən Prezident İlham Əliyev bu layihənin ərsəyə gəlməsində çəkilən əziyyətdən tutmuş, onun necə reallaşması ilə bağlı geniş məlumat verdi. Bildirdi ki, Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminalıdır və məhz burada dörd il bundan əvvəl "Cənub qaz dəhlizi"nin təməli qoyulub. 25 il ərzində ilk dəfə idi ki, Xəzər "Neft və Qaz Sərgisi"nin açılışı sərgi yerində yox, Səngəçal terminalında baş verib.

Sərginin Azərbaycanın enerji siyasətinin reallaşmasında çox böyük rolu olub. İlk sərgi 1994-cü ildə keçirilmişdir. O vaxt Azərbaycan gənc müstəqil dövlət idi və riskli dövlət kimi sayılırdı. Bu sərginin Azərbaycana investisiya qoyuluşu üçün çox önəmli rolu olmuşdur. Ötən 25 il ərzində bu sərgi dünya miqyasında çox mötəbər sərgi kimi tanınır və sərgidə iştirak edən şirkətlərin, ölkələrin sayı getdikcə artmaqdadır.

Prezident İlham Əliyev vurğuladı ki, bu layihənin reallaşması Azərbaycanın qarşısına qoyduğu bütün hədəflərə çatdığını təsdiqləyən faktordur: "Bu gün müstəqil Azərbaycan və bizim uğurlu neft-qaz siyasətimiz göstərir ki, ancaq müstəqillik şəraitində, müstəqillik dövründə Azərbaycan xalqı öz təbii ehtiyatlarından istifadə edə bilər, ancaq müstəqillik dövründə Azərbaycan uğurla inkişaf edə bilər. Bu gün biz müstəqil dövlət kimi ayaqda möhkəm dayanmışıq, ölkə qarşısında duran bütün vəzifələri uğurla icra edirik, belə nəhəng layihələri tərəfdaşlarımızla birlikdə icra edirik və Avropanın enerji xəritəsini yenidən tərtib edirik". Çıxışlardan sonra Prezident İlham Əliyev "Cənub qaz dəhlizi"nin açılışını edib və 29 may tarixi Azərbaycan neft-qaz sənayesinin şanlı tarixinə ən əlamatdar günlərdən biri kimi yazılıb.

Bütün bunlar Azərbaycanın dünyada təkcə enerji resursları ilə zəngin olan ölkə kimi deyil, həm də humanizm prinsiplərinə sadiq, tolerant və multikultural ölkə kimi tanındığını təsdiqləyir. Əldə olunan nailiyyətlər təkcə Azərbaycanın yerləşdiyi coğrafi mövqeyinə görə deyil, ən əsası, dövlət və onun lideri tərəfindən aparılan məqsədyönlü, uzaqgörən və milli maraqlara söykənən siyasət nəticəsində mümkün olmuşdur. 15 illik Prezidentliyi dövründə İlham Əliyevin yürütdüyü siyasi kurs ildən-ilə Azərbaycanın gücünə güc qatıb, ölkəmizi dünyanın ən sürətlə inkişaf edən dövlətləri sırasına yüksəldib. Ölkəmizdə keçirilən forumlara, konfranslara marağın yüksək olmasının əsas amillərindən biri Azərbaycanın inkişaf edən bir dövlət kimi beynəlxalq imicinin yüksəlməsi ilə bağlıdır. Bu gün beynəlxalq ictimaiyyət ölkəmizi Avrasiya məkanının əməkdaşlıq formatında həlledici dövlət kimi qəbul edir.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Gəncəlilər hər zaman dövlətçiliyə xidmət edib, daim Prezidentin ətrafında sıx birləşiblər

## *İlk görüş ziyalılarla, ilk xeyir-dua isə ağsaqqallardan oldu*

Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Gəncə şəhərində yeni dönəm başlayır. İki ay öncə burada yaşanan xoşagəlməz olaylar yaddaşlardan silinməsə də, bu gün şəhərdə sabitlik hökm sürür və həyat öz axarı ilə davam edir.



Bu bir həqiqətdir ki, şəhərdə yaşanan iyul hadisələri zamanı gəncəlilər ayağa qalxaraq sabitliyi pozmağa, qarışıqlıq yaratmağa çalışan radikal "dindarlara" qarşı qətiyyətli mübarizə apardılar və iki polis zabitini qətlə yetirənlərin ən ciddi şəkildə cəzalandırılmalarını, bu işdə əli olanların isə ədalət mühakiməsi qarşısında cavab vermələrini tələb etdilər. Hüquq-mühafizə orqanlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhərdə iğtişaş törədən şəxslər müəyyənləşdirilərək həbs edildilər. Hazırda istintaq prosesi davam edir.

Avqust ayının 28-də isə Prezident İlham Əliyevin sərəncamı ilə Gəncəyə yeni icra başçısı təyin edildi. Sərəncama əsasən, 2012-ci ildən Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışan Niyazi Bayramov bundan sonra Gəncənin yeni-yeni nailiyyətləri, uğurları üçün çalışacaq.

Avqustun 29-da Gəncədə Azərbaycan Prezidentinin Ərazi-təşkilat məsələləri üzrə köməkçisi Zeynal Nağdəliyev ictimaiyyətin iştirakı ilə keçirilən tədbirdə Niyazi Bayramovu kollektivə təqdim etdikdən sonra yeni icra başçısı vəzifəsinin icrasına başlayıb.

Niyazi Bayramov ilk olaraq şəhər ağsaqqallarını bir araya toplayıb. Bu görüşdə elm, səhiyyə, mədəniyyət, idman və digər sahələri təmsil edən 50-yə yaxın ağsaqqal ziyalı iştirak edib. Öncə vaxt ayırıb görüşə gəldikləri üçün ziyalılara təşəkkür edən icra başçısı bildirib ki, tarixən mədəniyyət beşiyi hesab olunan Gəncə həm də ziyalılar şəhəridir.

Bu görüşün Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq təşkil edildiyini ziyalıların diqqətinə çatdıran Niyazi Bayramov dövlət başçısının ona öncə ağsaqqalların fikirləri əsasında şəhərdəki problemlərlə maraqlanmağı tövsiyə etdiyini vurğulayıb: "Bu görüşü təşkil etməkdə əsas məqsədim, Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq ağsaqqaların fikirlərini öyrənmək, şəhərdə olan problemlər barədə məlumat almaq, onların həlli istiqamətində təkliflərinizi dinləməkdir. Bu baxımdan sizin dəstəyinizə ümid edirəm".

Görüşdə AMEA Gəncə bölməsinin akademik katibi Fuad Əliyev, ADAU-nun rektoru İbrahim Cəfərov, GDU-nun rektoru Yusif Yusibov, ATU-nun rektoru Akif Süleymanov, GDU-nun prorektoru Gülsüm Fətəliyeva, Gəncə Şəhər Veteranlar Təşkilatının sədri Yusif Məmmədov, Böyük Vətən müharibəsi veteranı Tofiq Hüseynov, Ağsaqqallar Şurası Gəncə Şəhər Təşkilatının sədri Xalid Qurbanov, Gəncə Dövlət Dram Teatrının rejissoru Vaqif Şərifov və digərləri çıxış edərək, şəhərə yeni təyin olunan icra hakimiyyəti başçısına işlərində uğurlar arzulayıblar. Ziyalılar əmin olduqlarını bildiriblər ki, Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində Gəncə bundan sonra da çiçəklənəcək, inkişaf edəcək. İnsanların güzəranı gözəl, xoşbəxt olacaq.

Bildirilib ki, Gəncə və gəncəlilər hər zaman dövlətçiliyə xidmət edib, daim ölkə rəhbərinin yanında olublar. Şübhəsiz ki, onlar bundan sonra da Gəncənin inkişafı üçün çalışacaq, şəhər rəhbərinin yanında olacaq, əllərindən gələn köməyi göstərəcəklər. Çıxışlar zamanı həlli vacib hesab olunan məsələlərlə bağlı məlumatlar verilib, bir sıra təkliflər səsləndirilib.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

"Azərbaycan"a cavab verirlər

# "Abad şəhərin bərbad bazarı"

"Azərbaycan" qəzetinin 22 iyun 2018-ci il tarixli sayında "Abad şəhərin bərbad bazarı" sərlövhəli tənqidi məqalə dərc edilmişdi. Məqalədə Cəlilabad şəhəri mərkəzi bazarında hökm sürən natəmizlik, antisanitariya və digər nöqsanlardan söhbət açılır, cənub bölgəsinin ətraf rayonlarının, hətta ölkəmizə dincəlməyə gələn xarici vətəndaşların da alış-veriş üçün üz tutduqları bu bazarda günün tələblərinə uyğun səliqə-sahman yaradılmasının vacibliyi diqqətə çatdırılmışdı.

Tənqidi məqalə tədbir görülmək üçün Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinə göndərilmişdir. Bu günlərdə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini Balarəhim Quliyevin imzası ilə aldığımız cavab məktubunda deyilir:

"Hörmətli redaksiya! "Azərbaycan" qəzetinin 22 iyun 2018-ci il tarixli sayında dərc edilmiş "Abad şəhərin bərbad bazarı" sərlövhəli tənqidi məqalə Qida Təhlükəsizliyi Agentliyində geniş müzakirə olunmuşdur. Agentliyin müvafiq regional bölmə əməkdaşları tərəfindən bazara baxış keçirilmişdir. Bununla əlaqədar akt tərtib edilmişdir. Faktlar doğrudur. Məqalədə qeyd olunan nöqsanların aradan qaldırılması üçün bazar rəhbərliyinə lazımi tapşırıqlar və tövsiyələr verilmişdir. Bazarın gündəlik sanitariya vəziyyəti ciddi nəzarətə götürülüb, kənd təsərrüfatı məhsulları və sənaye mallarının günün tələblərinə uyğun satışı üçün normal şərait yaradılır, bazarın giriş-çıxış yolları təmir edilir və ətraf ərazisində səliqə-sahman yaradılır".

## Atəşkəs rejimi 86 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 86 dəfə pozub. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Qaymaqlı və Quşçu Ayrım kəndlərində, Tovuz rayonunun Ağbulaq və Qaralar kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Nəmirli, Şuraabad, Tağıbəyli, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

AzerGold

# Azərbaycan qızılından külçə və sikkələr istehsal olunacaq

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti Azərbaycan istehsalı olan qızıldan və gümüşdən sikkə və külçələrin hazırlanması layihəsinə başlayıb. Külçə və sikkələrin hazırlanması Cəmiyyətin inkişaf strategiyası əsasında icra olunur.

Layihə ölkənin qızıl hasilatçısı kimi yerli və beynəlxalq bazarlarda tanıtımı, "Made in Azerbaijan" brendinin təşviqi ilə yanaşı, yerli sahibkarlıq subyektlərinə dəstəyin təmin edilməsi və daxili bazarın inkişaf etdirilməsi məqsədini daşıyır. 999.9 əyarlı külçə və sikkələrin istehsalı və "AzerGold" brendi altında təqdim edilməsi yerli bazarda məhsul çeşidinin artırılması və əlverişli iqtisadi münasibətlərin inkişafına təkan verəcəkdir. Nominal dəyəri olmayan qızıl və gümüş sikkələr, həmçinin qızıl külçələr üç çəkidə olacaq: 5, 10 və 20 qram.

İstehsalın ilkin mərhələsində qızıl və gümüş sikkələrin "Heydər Əliyev Mərkəzi", "Qobustan" və Qarabağ xalçasının naxışı "Çələbi" olmaqla üç müxtəlif dizaynda istehsal edilməsi planlaşdırılır. Bütün məhsulların üzərində Azərbaycan qızılı/gümüşü olduğu qeyd olunacaq.

***"Azərbaycan"***

# Dövlət başçısının bölgələrə səfərləri yeni sosial-iqtisadi obyektlərin tikintisini sürətləndirir

*Əvvəli 1-ci səh.*

Şamaxı ötən əsrin 70-80-ci illərində Azərbaycanın ən böyük üzümçülük rayonlarından biri idi. SSRİ-nin dağılmasından sonra digər sahələrdə olduğu kimi, üzümçülükdə də tənəzzül yaranmağa başladı. Üzüm bağları məhv edildi və şərab emalı zavodları fəaliyyətini dayandırdı. "Şirvan şərabları" MMC-nin fəaliyyəti Şamaxının bu sahədəki keçmiş şöhrətini özünə qaytarır. Müəssisənin 310 hektar sahəsi var. Şərabçılıq zavodu Fransanın "Prera" şirkətinin avadanlıqları ilə təchiz olunub. Müəssisənin hədəfi illik 1,4 milyon litr şərab istehsalına nail olmaqdır.



Prezident İlham Əliyev səfər zamanı həmçinin İsmayıllı rayonunun Keyvəndi kəndinin ərazisində istifadəyə verilən "AZZA AGRO" MMC-nin 1000 başlıq müasir heyvandarlıq kompleksinin açılışında da iştirak edib. Xatırladaq ki, ölkədə ərzaq məhsullarına tələbatın yerli istehsal hesabına ödənilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi, ölkədə malqaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə heyvandarlıq kompleksləri yaradılır. Dövlət ölkənin ət və süd məhsullarına olan tələbatının yerli istehsal hesabına tam ödənilməsi məqsədilə istehsalçılara hərtərəfli kömək göstərir. Bu məqsədlə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 264,1 milyon manat olan 49,1 min başlıq 27 müasir cins heyvandarlıq kompleksinin yaradılmasına 111,7 milyon manat güzəştli kredit ayrılıb. Eyni zamanda, İqtisadiyyat Nazirliyi tərəfindən 9 heyvandarlıq kompleksinin yaradılmasına ümumi dəyəri 68,4 milyon manat olan investisiya təşviqi sənədi verilib ki, nəticədə qənaət olunmuş 746 min manat vəsait sahibkarlar tərəfindən həmin layihələrin icrasına yönəldilib. "AZZA AGRO" MMC-nin fəaliyyətə başlamasında dövlətin ayırdığı güzəştli kreditlərin mühüm rolu var.

Aqrar sektorun inkişafında müxtəlif növ sahibkarlıq fəaliyyətindən istifadə edilir. Yəni, kənd təsərrüfatında kiçik, orta və iri fermer təsərrüfatları ilə yanaşı, müasir dövrün tələblərinə cavab verən aqroparklar da yaradılır. Aqroparklar müasir texnika və texnologiyalardan, eləcə də elmin son nailiyyətlərindən istifadə etməklə yüksək məhsuldarlığa nail olurlar. Buna görə də son dövrlər ölkəmizdə aqroparkların yaradılması istiqamətində mühüm addımlar atılır. İsmayıllı rayonundakı "Buta Qrup" MMC tərəfindən yaradılan aqropark hazırda üç istiqamətdə fəaliyyət göstərir. Burada cari ildə 120 hektarda buğda, 120 hektarda kartof və 96 hektarda qarğıdalı əkilib. Bu məhsulların hər üçü ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsində önəmli rol oynayır. Bir sözlə, aqroparklar yaradılarkən məhsulla yerli bazarın təminatı ilə yanaşı, ixrac da nəzərə alınır. Məqsəd həm ölkənin daxili tələbatını ödəmək, həm də xarici bazara məhsul çıxarmaqla daha çox valyuta əldə etməkdir.



Azərbaycanda qədim dövrlərdən xalça sənətinə böyük maraq göstərilib. Ölkəmizdə toxunan xalçalar rəng seçimi, ilmələri, naxışları ilə digərlərindən müsbət mənada fərqlənir. Bunun nəticəsidir ki, Azərbaycan xalçası bu gün dünyanın tanınmış muzeylərinin qiymətli eksponatlarındandır. Son dövrlər Prezident İlham Əliyevin tapşırığı ilə bu sahənin inkişafına yenidən start verilib. Hazırda "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin bir çox rayonlarda filialları var. Səfər zamanı dövlət başçısı "Azərxalça"nın İsmayıllı filialının açılışında da iştirak edib. Burada 43 dəzgahda müxtəlif ölçülü Ağsu, İsmayıllı, Qobustan, Şamaxı, Ağdaş, Göyçay, Hacıqabul, Kürdəmir, Salyan, Ucar, Zərdab, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala rayonlarında toxunan orijinal Şirvan xalça çeşnilərinə üstünlük veriləcək.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən siyasətin istiqamətlərindən biri də sosial infrastruktur layihələrin icrasıdır. Prezident İlham Əliyev İsmayıllı rayonuna səfəri çərçivəsində 1200 nəfərin yaşadığı dörd yaşayış məntəqəsini birləşdirən Muğanlı-İsmayıllı-Mingə-Keyvəndi-Şəbiyan-Bəhliyan və Qaraməryəm-İsmayıllı-Şəki yolunun 5-ci kilometrliyindən ayrılan Kürdmaşı-Kəlbənd-Girik avtomobil yollarının yenidənqurma və bərpasından sonrakı açılışında iştirak edib. Hər iki yolun istifadəyə verilməsi yerli camaatın gediş-gəlişinin rahatlığını təmin etməklə yanaşı, kənd sakinlərinə istehsal etdikləri məhsulu bazara çıxarmalarına imkan yaradır. Yolların rahatlığı bu yerlərə turistlərin gediş-gəlişini də asanlaşdırır.

Heydər Əliyev Fondunun təhsil, səhiyyə, mədəniyyət və digər sahələri əhatə edən obyektlərin tikintisində mühüm rolu var. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva avqustun 25-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilən 132 şagirdlik Şamaxı rayonu Meysəri kənd orta məktəbinin açılışında da iştirak ediblər. Fondun təhsil sahəsində gördüyü işlər sırasında müxtəlif bölgələrdə reallaşdırılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı mühüm əhəmiyyət daşıyır. 2003-cü ildən bu günədək 3 mindən çox məktəb tikilib. Bu işlərdə Heydər Əliyev Fondunun müstəsna rolu var.

İsmayıllı rayonunun Lahıc qəsəbəsi Azərbaycanın qədim yaşayış məskənlərindəndir. Qəsəbə nadir arxitekturası ilə də diqqəti cəlb edir. Bu gün Lahıc Tarix-Mədəniyyət Qoruğunda 90-dan çox tarixi abidə, o cümlədən 5 məscid, 3 hamam, 60-dan artıq yaşayış evi, həmçinin körpü və su dəyirmanı, qəbirüstü daşlar, bir neçə sənətkarlıq emalatxanası və ictimai binalar qorunur. Lahıc həm də sənətkarlar diyarıdır. Burada 100-dən çox sənət növü və peşələr yaşadılaraq inkişaf etdirilir.

Lahıc öz unikallığı ilə turistlərin diqqətini daha çox cəlb edən məkandır. Ona görə də ölkəmizə gələn minlərlə turist bu qəsəbəni ziyarət edir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qəsəbədə yeni inşa olunan 400 şagirdlik orta məktəbin açılışında iştirak ediblər. Müxtəlif fənn kabinetlərinin və laboratoriyanın yaradıldığı məktəbdə bütün sinif otaqları əyani vasitələrlə təchiz olunub. Məktəbdə şagirdlərin ixtiyarına idman və 175 yerlik akt zalı verilməklə bərabər, mərkəzləşdirilmiş istilik sistemi də var. Qəsəbə sakinləri üçün ən böyük hədiyyə isə təbii qazın verilməsi oldu. Belə ki, Lahıc qəsəbəsi dağlar qoynunda yerləşir, qışı sərt və soyuq olur. Buna görə də qəsəbənin mavi qaza daha çox ehtiyacı var. Artıq lahıclılar qışda evlərində istilik yaratmaq çətinliyindən birdəfəlik azad oldular.

Prezident İlham Əliyev bölgələrə səfər edərkən hər bir rayonda mövcud problemləri öyrənərək onun həlli üçün sərəncamlar imzalayır. Dövlət başçısı Şamaxı və İsmayıllı rayonlarına səfərindən sonra ənənəyə sadiq qalaraq "Şamaxı şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında", "Şamaxı rayonunda "ASAN xidmət" mərkəzinin layihələndirilməsi və tikintisi haqqında", "Şamaxı rayonunun Çuxuryurd-Sis-Qaleybuğur-Keçməddin-Qaladərəsi avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında", "İsmayıllı şəhərində yeni uşaq bağçasının tikintisi ilə bağlı tədbirlər haqqında", "İsmayıllı şəhərində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair tədbirlər haqqında", "İsmayıllı rayonunda yeni xalça istehsalı emalatxanasının tikintisi, təchizatı və infrastrukturunun yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncamları imzalayıb. Həmin sənədlərin imzalanması bu rayonların sosial-iqtisadi inkişafına təkan verməklə yanaşı, yeni iş yerlərinin açılmasına da imkan yaradacaq. Beləliklə, iqtisadi inkişafla yanaşı, sosial məsələlər də paralel şəkildə həll olunacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Beynəlxalq aləm
## HADİSƏLƏR, FAKTLAR

## Tramp DTT-dən çıxmaqla hədələyir



ABŞ Prezidenti Donald Tramp Dünya Ticarət Təşkilatından (DTT) çıxmağa hazır olduğunu bildirmişdir. O, "Bloomberg" agentliyinə müsahibəsində demişdir ki, "DTT dəyişməsə, ABŞ-ı təşkilatdan çıxaracağam".

Bundan əvvəl Tramp dəfələrlə təşkilatı tənqid etmişdir. Prezidentin fikrincə, DTT ABŞ-a münasibətdə özünü ədalətsiz aparır.

Bir müddət əvvəl analoji xəbər yayıldıqdan sonra ölkənin maliyyə naziri Stiven Mnuçin bunu "yalan xəbərlər" adlandırmışdı. DTT-ni tərk etmək üçün Konqresin razılığı lazımdır.

Tramp həmçinin Avropa İttifaqının (Aİ) avtomobil idxalı və ixracına tətbiq edilən rüsumların ləğvi barədə təklifini rədd etmişdir. O bildirmişdir ki, "bu təklif çox da yaxşı deyil, onların istehlakçı vərdişləri bizim yox, öz maşınlarını almaqdır".

Tramp Aİ-ni Çinlə müqayisə etmişdir. O demişdir ki, "Aİ də elə Çin kimi pisdir, sadəcə, ondan kiçikdir".

## Stefan de MİSTURA: "İdlibdə böyük fəlakət baş verə bilər"



BMT-nin Suriya üzrə xüsusi nümayəndəsi Stefan de Mistura İdlib şəhərində tezliklə böyük fəlakət baş verəcəyi ilə bağlı xəbərdarlıq etmişdir. O bildirmişdir ki, mümkün toqquşma tək İdlibin deyil, bütün Suriyanın hüdudlarından kənara çıxa bilər. Bu barədə vesti.ru saytı xəbər verir.

De Mistura vurğulamışdır ki, İdlibdə iri hərbi toqquşmanın qarşısını almaq üçün Türkiyə, Rusiya və İrana daha çox vaxt vermək lazımdır.

BMT-nin xüsusi nümayəndəsi həmçinin qeyd etmişdir ki, kimyəvi silahdan istifadə olunacağı ilə bağlı xəbərdarlıq həyati əhəmiyyət daşıyır. O həmçinin mülki şəxslərin regiondan təxliyə olunması üçün humanitar dəhliz açmağa çağırmışdır.

Bu arada de Misturanın bəyanatına Moskvanın reaksiyası İdlib ətrafında vəziyyəti daha da gərginləşdirmişdir. Kreml hesab edir ki, terror yuvası olan İdlibdə əməliyyatın keçirilməsi zəruridir.

## İran raket proqramı ilə bağlı danışıqlar aparmayacaq




İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Bəhram Qasimi bildirmişdir ki, Tehran özünün raket proqramı məsələsi ilə bağlı danışıqlar aparmayacaq. Bu barədə "Təsnim" agentliyi xəbər verir.

Qasimi Fransa Xarici İşlər Nazirliyinin Tehranın raket proqramını beynəlxalq danışıqların gündəliyinə daxil etmək təklifinə münasibət bildirərkən demişdir: "Raket proqramına gəldikdə, biz növbəti dəfə təkrar edirik ki, o, müdafiə xarakteri daşıyır, beynəlxalq öhdəlikləri pozmur və ölkənin, habelə İran əhalisinin müdafiəsi üçün həyati əhəmiyyətə malikdir. Biz bu mövzuda danışıqlar aparmayacağıq". O əlavə etmişdir ki, İranın regiondakı siyasəti sülhün bərqərar olmasına və beynəlxalq terrorizmlə mübarizəyə yönəlmişdir.

Xatırladaq ki, srağagün Fransanın xarici işlər naziri Jan-İv Le Drian Parisin nüvə sazişini dəstəklədiyini bildirmişdir. Onun fikrincə, İran Fransa tərəfinin narahatlığına səbəb olan digər üç mövzuda danışıqlardan yayınmamalıdır. Nazir qeyd etmişdir ki, söhbət İranın nüvə proqramı üzrə 2025-ci ildən sonrakı öhdəliklərindən, ballistik raketlərin yayılması məsələlərindən, habelə Tehranın regionda oynadığı roldan gedir.

## Argentinada kütləvi etirazlar



Maliyyə böhranı və büdcə xərclərinin azaldılması proqramı üzündən Argentinanı kütləvi etiraz aksiyaları bürümüşdür. Paytaxt Buenos-Ayresin mərkəzində on minlərlə adam universitetlərin müdafiəsi ilə bağlı şüarlar altında yürüş keçirmişdir. Onlar ali təhsil müəssisələrinin maliyyələşdirilməsində dövlətin iştirakının məhdudlaşdırılması planlarından narazıdırlar. Bu barədə "Rosbalt" agentliyi xəbər verir.

Aksiyada inflyasiyanın artması fonunda iqtisadi siyasəti dəyişdirmək tələbləri də səslənmişdir. Təkcə iki gün ərzində ABŞ dollarının Argentina pesosuna nisbətdə kursu təxminən 20 faiz artmışdır. Etirazçılar qiymət artımını hiss etdiklərini bildirmişlər. Yürüş zamanı onlar boş qazanlarla səs-küy salmışlar.

Hökumət isə əmin edir ki, hazırda defolt təhlükəsi mövcud deyil. Baş nazir Markos Penya bildirmişdir ki, hər şey plan üzrə gedir. İqtisadiyyat isə, sadəcə, dəyişikliklər dövrü yaşayır. Eyni zamanda Buenos-Ayres Beynəlxalq Valyuta Fondundan maliyyə yardımının növbəti transının köçürülməsini tezləşdirməyi xahiş etmişdir.

# Bakı Kitab Mərkəzində ziyalılar və ictimai xadimlər üçün təqdimat keçirilib

Avqustun 31-də Bakı Kitab Mərkəzində ziyalılar və ictimai xadimlər üçün təqdimat keçirilib.

AZƏRTAC xəbər verir ki, qonaqlara Bakı Kitab Mərkəzinin fəaliyyət istiqamətləri və həyata keçiriləcək layihələr, tədbirlər barədə məlumat verilib.

Bakı Kitab Mərkəzinin direktoru Günel Rzayeva belə bir mədəniyyət və ədəbiyyat ocağını xalqımıza nəsib etdiyinə görə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya dərin təşəkkürünü bildirib. "Çox istərdim ki, bu möhtəşəm layihə uzunömürlü olsun və gələcək nəslin maariflənmə, mütaliə məsələlərində əsas rollardan birini oynasın", - deyə Günel Rzayeva bildirib.





### Hər kəs üçün maraqlı olacaq Bakı Kitab Mərkəzi

Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov fondun Azərbaycanda həyata keçirdiyi mədəniyyət layihələrindən, eyni zamanda, gənclərin təhsilə, kitaba marağının artırılması istiqamətində gördüyü işlərdən danışıb və bunun davamlı olacağını söyləyib. Regionlardakı Heydər Əliyev mərkəzlərində kitabxanaların fəaliyyət göstərdiyini qeyd edən Anar Ələkbərov Bakı Kitab Mərkəzinin yaradılmasında Birinci vitse-prezident Mehriban Əliyevanın rolunu xüsusi vurğulayıb və onun bütün proseslərə yüksək diqqətlə yanaşdığını qeyd edib. "Bizim çoxdankı arzumuz idi ki, Bakıda yüksək şəraiti olan və müxtəlif nəşrləri əhatə edən kitab mərkəzi yaradılsın. Düşünürəm ki, biz buna nail olduq", - deyən Anar Ələkbərov Bakı Kitab Mərkəzinin hər kəs üçün maraqlı olacağını bildirib.

### Mərkəzdə görmə imkanları məhdud şəxslər üçün də şərait yaradılıb

Bakı Kitab Mərkəzinin ictimaiyyət üçün açıq olacağını deyən Anar Ələkbərov fiziki cəhətdən qüsurlu insanların buraya sərbəst daxil olmasının nəzərə alındığını deyib. Diqqətə çatdırıb ki, Kitab Mərkəzində görmə imkanları məhdud şəxslər üçün də guşə fəaliyyət göstərir. Belə ki, mərkəzin ikinci mərtəbəsində oxu zalı, görmə qabiliyyəti məhdud şəxslər, uşaqlar üçün guşələr, müxtəlif ədəbi və mədəni xarakterli təqdimat tədbirlərinin keçiriləcəyi məkan və elmi fəaliyyətlə məşğul olanlar üçün tədris guşəsi var.

### Dünyaya açılan pəncərə

Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anar müasir dövrdə - kitab mütaliəsinin yeni texnologiyalarla əvəzləndiyi bir zamanda Bakı Kitab Mərkəzinin yaradılmasını yüksək qiymətləndirərək deyib: "Bu, kitabın bir daha təsdiq olunması, kitabın mənəviyyatda, insan həyatında mühüm yer tutduğunun təsdiqi deməkdir".

Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycan mədəniyyətinin təbliğində gördüyü işləri vurğulayan xalq yazıçısı Anar Bakı Kitab Mərkəzini dünyaya açılan bir pəncərə kimi dəyərləndirib. "İstərdim ki, bütün ömrüm burada keçsin. Çünki oxumadığım bütün kitablar burada var", - deyə xalq yazıçısı söyləyib.

### O xalqlar yaşayacaq ki, onların kitablara meyli var

Azərbaycan Yazıçılar Birliyinin katibi, xalq yazıçısı Çingiz Abdullayev müstəqil Azərbaycanda belə bir mərkəzin yaradılmasını yüksək qiymətləndirb. "Arzu edərdim ki, buraya yazıçılar gəlsin və görüşlər keçirilsin, eləcə də cavanlar gəlsinlər. Bizim gələcəyimiz, siyasətimiz, iqtisadiyyatımız, ordumuz, Qarabağ məsələmiz bax buradan, kitabdan başlayır. Kitab olmasa, heç nə olmayacaq. Yalnız o xalqlar yaşayacaq ki, onların kitablara meyli var, onların övladları oxuyur. Uşaqları oxumayan dövlətin gələcəyi yoxdur", - deyən Çingiz Abdullayev bugünkü Azərbaycanın inkişafının təhsil sayəsində mümkün olduğunu diqqətə çatdırıb. Vurğulayıb ki, Azərbaycan Respublikası mədəniyyət baxımından çox inkişaf edib.

Sonra Bakı Kitab Mərkəzi haqqında videoçarx nümayiş etdirilib.

Qeyd edək ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə yaradılan Bakı Kitab Mərkəzinin əsas məqsədi mütaliəyə marağın artırılmasıdır. Mərkəzdə Azərbaycan və digər xalqların dillərində dünya ədəbiyyatı bestsellerləri, incəsənətə dair nadir albomlar, turistlər üçün bələdçi kitabları, musiqi kitabları və notlar da satılacaq. Burada müxtəlif dillərdə və janrlarda 10 mindən çox adda kitab təqdim olunacaq.

### Kitabsevərlər asudə vaxtlarını səmərəli keçirəcək

Bakı Kitab Mərkəzi layihəsi üzərində işlənilərkən kitabsevərlərin müxtəlif nəşrlər əldə etməsi ilə yanaşı, burada asudə vaxtlarını səmərəli keçirmələri üçün hər bir məqama xüsusi diqqət yetirilib.

Mərkəzdə quraşdırılan monitorlarda yeni kitablar haqqında məlumatlar da əldə etmək olar. Eyni zamanda, sensor ekranlarda mərkəzdə satılan kitablar haqqında məlumat almaq mümkündür.

Bakı Kitab Mərkəzində oxuculara Heydər Əliyev Fondunun ayrı-ayrı sahələr üzrə nəşrləri də təqdim edilir.

Mərkəzdə mütəmadi olaraq müxtəlif kitab təqdimatları, məşhur yazıçı, şair, həmçinin sevilən mədəniyyət və incəsənət xadimləri ilə görüşlər, ustad dərsləri, uşaq və yeniyetmələrdə mütaliəyə marağı artırmaq üçün tanınmış şəxslərin iştirakı ilə oxu günləri, dil kursları və digər tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Kitab satışı ilə yanaşı, burada "Coffeemood" adlı kafe də fəaliyyət göstərir. Qonaqlar kafedə istirahət edərkən mərkəzdə təqdim edilən kitab və jurnallarla tanış ola biləcəklər.

Həmçinin burada müxtəlif nəşrlərlə yanaşı, "I love Baku" milli brendinin Azərbaycana dair suvenirlərini və "Azərmarka"nın məhsullarını əldə etmək mümkündür.

Bakı Kitab Mərkəzinin 3 dildə saytı fəaliyyət göstərəcək və oxucular bu internet resursları vasitəsilə kitablar sifariş verə biləcəklər. Mərkəzin yeniliklərini "Facebook" və "Instagram" səhifələrindən də izləmək mümkündür:

www.facebook.com/bakubookcenter
www.instagram.com/bakubookcenter

# "Azercell"in Barama mərkəzində 25 məktəbliyə pulsuz proqramlaşdırma dərsləri keçirilib



"Azercell Telekom" MMC və PAŞA Bankın dəstəyi ilə Barama İnnovasiya və Sahibkarlıq Mərkəzinin uşaqlarda rəqəmsal sahəyə marağı artırmaq və rəqəmsal ekosistemin inkişafına dəstək olmaq məqsədi ilə həyata keçirdiyi "Barama Junior: Coding Kids IT Summer School" layihəsi uğurla yekunlaşıb. 31 avqustda dərslərdə iştirak edən məktəblilərin, o cümlədən valideynlərin, müəllimlərin və qonaqların iştirakı ilə layihənin başa çatmasına həsr olunan xüsusi tədbir keçirilib. Barama mərkəzinin koordinatoru Fidan Tofidi layihənin hər kəs tərəfindən maraqla qarşılanmasını və təlimdə iştirak üçün müraciət sayının çoxluğunu sevindirici hal kimi qiymətləndirib: "İlk 8 gün ərzində 300-dən çox məktəbli layihədə iştirak üçün qeydiyyatdan keçdi. "Barama Junior: Coding Kids IT Summer School" layihəsinə başlayan zaman bizim bir məqsədimiz var idi: gələcəyimiz olan uşaqlara faydalı olmaq. Ümid edirəm, bu məqsədimizə nail olduq" - deyən mərkəzin koordinatoru aparılan seçimlər nəticəsində 25 məktəblinin proqramda iştirak etdiyini bildirib.

Tədbirdə təlimin iştirakçısı olan məktəblilər və valideynlər də layihə ilə bağlı öz təəssüratlarını bölüşüblər. Mərasimin sonunda məktəblilərə sertifikat və hədiyyələr təqdim edilib.

*"Azərbaycan"*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi proqramlar ilə idman, incəsənət və xalq sənəti növlərinin öyrənilməsinə yardım göstərilməsi" adlı təkrar müsabiqə keçirir. Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün Bakı şəhəri, Salatın Əsgərova küçəsi 85 ünvanına yazılı müraciət edə bilərlər. Müsabiqədə iştirak edən təşkilatların təklifləri Salatın Əsgərova küçəsi 85 (mərtəbə-5, otaq-506) ünvanına 11 sentyabr 2018-ci il saat 18:00-dan gec olmayaraq təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 12 sentyabr 2018-ci il saat 11:00-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 596-44-09.**

***Müsabiqə komissiyası***

# Odlar yurdunda futbol bayramı




## *Monakoda "Bakı-2019" UEFA Avropa Liqasının loqosunun təqdimat mərasimi keçirilib*

Dünən Monakoda "Bakı-2019" UEFA Avropa Liqasının loqosunun təqdimatı olub. Loqoda UEFA Avropa Liqasının kuboku Bakının lokal xüsusiyyətlərini əks etdirən ecazkar arxitektura nümunələrinin fonunda təsvir olunub. Loqonun dizaynında Azərbaycan Dövlət Akademik Filarmoniyası, "Alov" qüllələri, Qız qalası, Heydər Əliyev Mərkəzi və Hökumət evi kimi məşhur tikililərin təsvirindən istifadə olunub. Loqonun brendinqi Avropa qitəsini və Azərbaycanın paytaxtı Bakı şəhərini əhatə edəcək yarışın dinamik təbiətini və coğrafi xüsusiyyətlərini tərənnüm edir.

Azərbaycan dünyada Odlar yurdu kimi tanınır. Buna görə də loqoda "A" hərfi alov dilimləri formasında oyularaq dizayn edilib. "Buta" naxışı isə milli geyimlərimizdə, xalçaçılıqda, eləcə də toxuculuq sənayesində çox istifadə edilir. Bundan ilhamlanaraq, UEFA Avropa Liqası üçün gələcəkdə müxtəlif dizayn işlərində istifadə edilə biləcək xüsusi "Buta" naxışı hazırlanıb.

"Bakı-2019" finalı üçün yeni mövsümün başlanğıcında təqdim edilən əsas dizayn elementlərindən də istifadə olunaraq hazırlanmış xüsusi loqo Bakı şəhərinin qədim və müasir xüsusiyyətlərini əks etdirir. Avropanın gələcək futbol turnirlərində və yarışlarında, eləcə də müxtəlif təqdimatlarda və reklam işlərində loqonun daha da təkmilləşdirilməsi qarşıya qoyulan məqsədlərdəndir. Yeni loqonun brendiqi UEFA-nın marketinq tərəfdaşlığı, həmçinin TEAM Marketing AG və Turquoise brendinq agentliklərinin əməkdaşlığı ilə hazırlanıb.

AFFA-nın baş katibi Elxan Məmmədov UEFA Avropa Liqasının qrup mərhələsinin Monakoda keçiriləcək püşkatma mərasimindən əvvəl Bakı şəhərinin qitənin ikinci mötəbər futbol tədbirinə evsahibliyi etməsi ilə bağlı açıqlama verərək deyib ki, Azərbaycan Prezidentinin imzaladığı müvafiq sərəncamlara uyğun olaraq, 2019-cu il mayın 29-da keçiriləcək final oyununa hazırlıq davam edir: "İnanırıq ki, Bakıda keçiriləcək final oyunu UEFA Avropa Liqası turnirinin indiyədək keçirilmiş final qarşılaşmaları arasında ən yaxşılardan biri, bəlkə də birincisi olacaq. Düşünürəm ki, finalda hansı komandaların çıxış etməsindən asılı olmayaraq, azarkeşlər Bakıda əsl futbol bayramı yaşaya biləcəklər. Bakı şəhərinin gözəlliyini görmək, Bakı Olimpiya Stadionunun əzəmətini hiss etmək istəyən komandalar Avropa Liqasının 2019-cu ildə keçiriləcək final qarşılaşmasına vəsiqə qazanmaq üçün səylərini əsirgəməyəcəklər. Mübarizə, gözəllik və əzəmət görmək istəyən komandalar, söz sizindir".

Əvvəli 1-ci səh.

# Yeni hakimiyyət, köhnə rejim, daha da dərinləşən böhran

## Siyasi xaos, sosial-iqtisadi tənəzzül Ermənistanı uçuruma yuvarladır

### "İnqilabçı eyforiya uzun müddət tab gətirməyəcək"

Bu arada yayılan məlumata əsasən, Serj Sarkisyanın rəhbər olduğu Respublika Partiyasının sabiq nazirlərinə qarşı yeni cinayət işi qaldırılıb. Cinayət işində sabiq parlament spikeri və baş nazir Ovik Abramyanın, nəqliyyat və rabitə naziri Qaqik Beqlaryanın da adı keçir. Ermənistan İstintaq Komitəsi ölkənin keçmiş polis rəisi Alik Sarkisyana qarşı da cinayət işi qaldırıb. Onların hamısı vəzifə səlahiyyətlərini aşmaqda və fırıldaqçılıqda ittiham olunurlar.

Erməni mediası yazır ki, Ermənistanın "Avazaatik" dağ-mədən kombinatının direktoru müstəntiqlərə sözügedən vəzifəli şəxslərin şirkətin payının 60 faizini tələb etdiklərini deyib. Sabiq baş nazir Ovik Abramyan, qardaşı Conik Abramyan, keçmiş polis rəisi Alik Sarkisyana və parlamentin üzvü Mqer Sedrakyana qarşı qanunsuz kreditlər yolu ilə külli miqdarda dövlət vəsaitini talamaq ittihamı da irəli sürülüb. Əleyhinə cinayət işi qaldırılan şəxslərin ölkədən çıxışı qadağan edilib.

Digər məlumata əsasən, İstintaq Komitəsi sabit prezident Robert Koçaryana məxsus obyektlərdə axtarışları davam etdirir. Bu durumda Koçaryan Paşinyanın siyasətini tənqid edərək baş naziri proseslərə qeyri-ciddi yanaşmaqda günahlandırıb. Onun sözlərinə görə, hazırkı inqilabçı eyforiya uzun müddət tab gətirə bilməyəcək.

### Sarkisyanın həbsə atılma ehtimalı yüksəkdir

Diqqət çəkən başqa bir məsələ Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanla bağlıdır. Onun adı bank və müəssisələrin səhmləri ilə fırıldaqçılıq üzrə cinayət işində hallanır. Ermənistan İstintaq Komitəsi bildirir ki, "Kredit Yerevan" ASC və "Lev Marsed" MMC-nin səhmləri ilə fırıldaqçılıq üzrə 2009-cu ilin 27 iyulunda açılmış cinayət işi çərçivəsində icra hakimiyyəti orqanlarının yüksək vəzifəli rəsmilərinin, o cümlədən Serj Sarkisyanın vəzifə səlahiyyətlərindən sui-istifadə etməsi barədə faktiki sübutlar əldə olunub. İstintaq zamanı müəyyən edilmiş dəlillər Xüsusi İstintaq Xidmətinə təqdim olunmaq üçün Baş Prokurorluğa göndərilib. Bu isə Sarkisyanın da həbsə atılma ehtimalını yüksəldir.

### Siyasi qətllərin sifarişçiləri niyə gizlədilir

Bundan əlavə, erməni mediası 1990-cı illərdə Ermənistanda çox sayda səs-küyə və böyük qalmaqallara səbəb olan siyasi qətllər törədildiyini yazıb. Onların sırasında ən qalmaqallısı isə 1999-cu ilin oktyabrında bir qrup silahlı şəxsin Ermənistan parlamentinə hücum edərək baş nazir Vazgen Sarkisyanı və parlamentin spikeri Karen Dəmirçiyanı, həmçinin daha 6 nəfər dövlət rəsmisini güllələməsidir. Daha sonra cinayəti törədənlər həbs olunsalar da, qətlin sifarişçilərinin kim olduğu üzə çıxarılmayıb.

Media diqqəti ona yönəldir ki, Ermənistanın Xüsusi İstintaq Xidmətinin rəhbəri Sasun Xaçatryan 2000-ci illərin siyasi cinayətləri, xüsusən də 2008-ci ilin mart qırğını ilə bağlı istintaqın davam etdiyini və günahkarların cəzalandırılacağını dəfələrlə bəyan edərək vədlər versə də, nədənsə əvvəlki dövrlərdə gerçəkləşdirilən cinayətlərlə bağlı həmişə susqunluq nümayiş etdirib.

Məlumata görə, jurnalitstlərlə söhbətində Xaçatryan Ermənistanda 1990-cı illərdə törədilən siyasi qətllər barədə səslənən sualları eşitməzdən gəlməyə çalışıb. Belə ki, jurnalistlərin "90-cı illərdəki siyasi cinayətlər barəsində də istintaq aparılacaqmı?" sualına cavab olaraq Xüsusi İstintaq Xidmətinin rəhbəri söhbətin istiqamətini dəyişib. Erməni KİV-i yazır ki, hətta Xaçatryan, az qala, həmin dövrdə heç bir siyasi sifarişli cinayətlərin törədilmədiyini deməyə çalışıb: "Əgər söhbət açılmamış cinayət işlərindən gedirsə, onda əlbəttə ki, istintaq aparılacaq. Başa düşmürəm ki, siz nədən danışırsınız".

Bununla belə, istisna olunmur ki, 1990-cı illərdə Ermənistanda çox sayda səs-küyə və böyük qalmaqallara səbəb olan siyasi qətllər də araşdırma mövzusuna çevriləcək. Bu isə R.Koçaryana və S.Sarkisyana qarşı yeni cinayət işinin başlanması üçün əsasdır. Təbii ki, bütün bunlar sonuncuların da hərəkətə keçməsinə rəvac verir.

### Partiyalar növbədənkənar parlament seçkilərinə qarşı çıxırlar

Ermənistan parlamentində təmsil olunan "Daşnaksütyun" və Respublika partiyalarının son mövqeləri də bunun təsdiqidir. "Daşnaksütyun" partiyası ölkədə siyasi gərginliyin artmasından narahat olduğunu bəyan edib. Partiyanın parlament fraksiyasının rəhbəri Armen Rustamyan bildirib ki, Robert Koçaryana və onun ətrafına qarşı məhkəmə prosesləri ədalətli aparılmalıdır. Onun sözlərinə görə, əks halda, qərəzli məhkəmələr normaya çevrilə bilər və bu da öz növbəsində, ziddiyyətlərin daha da artdığı cəmiyyətin yaranmasına gətirib çıxarar.

Rustamyan əlavə edib ki, öz ölkəsində düşmən axtarmaq lazım deyil və sabiq prezidentlərin siyasi səhnədə yerini qorumaq hüquqları var. Fraksiya rəhbəri sabiq dövlət başçısı Levon Ter-Petrosyanı on illik sükutunu pozmağa və fəal siyasətə qayıtmağa çağırıb.

Respublika Partiyasının parlament fraksiyası da baş nazir Nikol Paşinyanın əleyhinə bəyanatlar səsləndirməkdə davam edir. Bu partiyanın təmsilçisi, parlamentin vitse-spikeri Eduard Şarmazanov bildirib ki, əvvəlki hökuməti "hakimiyyət hərisliyində" təqsirləndirən yeni baş nazir bütün vasitələrdən istifadə edərək öz postunu qorumağa can atır. Onun sözlərinə görə, Paşinyan məhz bu məqsədlə Konstitusiyaya dəyişikliklər etməyi tələb edir: "Konstitusiyada baş nazirin istefaya getməsi ilə eyni vaxtda parlamentin buraxılması maddəsinin təsbit edilməsi Əsas Qanunun məntiqinə və parlamentin icra hakimiyyəti üzərində nəzarəti prinsipinə zziddir. Mən və partiyamızın üzvləri bunun əleyhinəyik".

Ermənistan parlamentində təmsil olunan partiyalar növbədənkənar parlament seçkilərinin keçirilməsi haqqında baş nazirin təklifinə qarşı çıxıblar. Onlar hesab edirlər ki, hazırkı siyasi vəziyyətdə ictimai əhval-ruhiyyə istənilən an kəskin şəkildə dəyişə bilər. Şarmazanovun fikrincə, belə olarsa, hər altı ayda bir növbədənkənar seçkilər keçirmək lazım gələcək.

Xatırladaq ki, Ermənistanda Seçki Məcəlləsinə dəyişikliklər edilməsi ilə bağlı siyasi partiyalar arasında danışıqlar aparılır. Yeni hökumət bu addımı növbədənkənar seçkilər keçirmək məqsədilə atır. Bu isə ölkədə ictimai-siyasi müstəvidə vəziyyəti gərginləşdirir. Hazırda Koçaryanın ətrafında cəmləşən müxalifət bütün bunlara qarşı yeni müqavimət təşkil etməyə hazırlaşır. Belə vəziyyət isə Ermənistanda gərginliyin artacağını göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "Qarabağ"ın rəqibləri məlum oldu

Dünən UEFA Avropa Liqasında qrup mərhələsinin püşkü atılıb. Püşkatmanın nəticəsinə əsasən, turnirdə yeganə təmsilçimiz Ağdamın "Qarabağ" komandasının rəqibləri məlum olub. E qrupunda mübarizə aparacaq ağdamlılar İngiltərənin "Arsenal", Portuqaliyanın "Sportinq" və Ukraynanın "Vorskla" komandaları ilə mübarizə aparacaqlar.

***Digər qruplar isə aşağıdakı kimidir:***

**A qrupu:** "Bayer" (Almaniya), "Lüdoqorets" (Bolqarıstan), "Sürix" (İsveçrə), AEK (Larnaka, Kipr).

**B qrupu:** "Zaltsburq" (Avstriya), "Seltik" (Şotlandiya), "Leypziq" (Almaniya), "Rusenborq" (Norveç).

**C qrupu:** "Zenit" (Rusiya), "Kopenhagen" (Danimarka), "Bordo" (Fransa), "Slaviya" (Praqa, Çexiya).

**D qrupu:** "Anderlext" (Belçika), "Fənərbağça" (Türkiyə), "Dinamo" (Zaqreb, Xorvatiya), "Spartak" (Trnava, Slovakiya).

**E qrupu:** "Arsenal" (İngiltərə), "Sportinq" (Lissabon, Portuqaliya), **"Qarabağ" (Azərbaycan),** "Vorskla" (Poltava, Ukrayna).

**F qrupu:** "Olimpiakos" (Yunanıstan), "Milan" (İtaliya), "Betis" (İspaniya), "Düdelanj" (Lüksemburq).

**G qrupu:** "Vilyarreal" (İspaniya), "Rapid" (Vyana, Avstriya), "Spartak" (Moskva, Rusiya), "Reyncers" (Şotlandiya).

**H qrupu:** "Latsio" (İtaliya), "Marsel" (Fransa), "Ayntraxt" (Frankfurt, Almaniya), "Apollon" (Kipr).

**İ qrupu:** "Beşiktaş" (Türkiyə), "Genk" (Belçika), "Malmö" (İsveç), "Sarpsborq" (Norveç).

**J qrupu:** "Sevilya" (İspaniya), "Krasnodar" (Rusiya), "Standard" (Lyej, Belçika), "Akhisar Belediyespor" (Türkiyə).

**K qrupu:** "Dinamo" (Kiyev, Ukrayna), "Astana" (Qazaxıstan), "Renn" (Fransa), "Yablonets" (Çexiya).

**L qrupu:** "Çelsi" (İngiltərə), PAOK (Yunanıstan), BATE (Borisov, Belarus), "Videoton" (Macarıstan).

Qrup mərhələsinin ilk oyunlarına sentyabrın 20-də start veriləcək.

UEFA Avropa Liqasının 2018-2019-cu il mövsümünün final qarşılaşması gələn ilin mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək.

*"Azərbaycan"*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə

**ASLAN ASLANOVUN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8635
Sifariş 2490